## AZƏRBAYCAN İSLAHATLARIN YENİ MƏRHƏLƏSİNƏ BAŞLAYIB

Son 15 ildə dünyaya nümunəvi inkişaf modeli təqdim edən müstəqil Azərbaycanın uğurlarını şərtləndirən mühüm amillərdən biri ölkədə konkret məqsədlərə hesablanan islahatların həyata keçirilməsi ilə bağlıdır. 2019-cu ilin əvvəlindən isə respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində diqqət çəkdiyi əsas məsələlərdən biri də məhz ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən və yaxşı nəticələr verən islahatlarla bağlıdır...



Bax səh. 2

## “THE WASHİNGTON TİMES” AZƏRBAYCANIN İQTİSADİ-SİYASİ NAİLİYYƏTLƏRİNDƏN YAZIB

ABŞ-da çıxan “The Washington Times” qəzetində amerikalı siyasi şərhçi, Beynəlxalq Münasibətlər Şurasının üzvü Monika Kroulinin Azərbaycanın iqtisadi və siyasi nailiyyətlərindən bəhs edən məqaləsi dərc olunub. ABŞ şərhçilərindən ibarət nümayəndə heyətinin tərkibində bu yaxınlarda Bakıda olmuş M.Krouli yazır ki, ölkədə vüsət alan tikinti bumu XX əsrin hüdudlarındakı Texası xatırladır. Lakin bu bum ayfonların, “Starbucks” kafesinin və Bakı küçələrində...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 28 mart 2019-cu il, cümə axşamı / № 054 (5429). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


## Prezident İlham Əliyev Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan “Bakmil” stansiyasında yaradılan şəraitlə tanış olub





## Prezidentin iş günü

Prezident İlham Əliyev Lənkəran rayonunun Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Orxan Sedyar oğlu Sultanova general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Azər Abdulla oğlu Mustafazadənin 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev Tahirə Ənvər qızı Cəfərovaya “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

⬩ ❖ ⬩

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə başsağlığı məktubu göndərib.

## “Luxus-Plus” portalı Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərindən yazıb



FRANCE-AZERBAÏDJAN: UNE COOPÉRATION ÉCONOMIQUE DE LONGUE DATE

2 heures 307

Mehriban Aliyeva, la vice-présidente de l'Azerbaïdjan s'est rendue en France à la mi-mars pour discuter des partenariats Franco-Azerbaïdjanais. L'occasion de revenir sur un pays au fort potentiel économique, notamment dans le luxe, avec qui la France entretient des relations historiques.

par Hélène Cougot

photo: Mehriban Aliyeva, Vice Présidente d'Azerbaidjan avec Edouard Philippe, Premier Ministre français

Comment en effet pourrait-on se passer de relations économiques, politiques et culturelles, avec l'un des nouveaux dragons de la région du Caucase, l'Azerbaidjan ? L'hexagone l'a bien compris : le monde a besoin de pays stables, et de moteurs régionaux. Il est donc nécessaire de favoriser les échanges bilatéraux avec des pays en forte croissance, partis de rien il y a encore trente ans.

La situation géographique de l'Azerbaidjan, en fait un **pivot régional fondamental** : coincé entre l'Arménie, l'Iran, la Turquie, la Géorgie et la Russie, Bakou a tout intérêt à avoir une économie solide.

Fransanın https://luxus-plus.com portalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu ölkəyə səfəri ilə bağlı “Fransa-Azərbaycan: uzun tarixi, iqtisadi əməkdaşlıq” adlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində iki ölkə arasında tərəfdaşlıq məsələlərinin müzakirə olunmasından yazılıb. Ölkəmizin iqtisadi və digər sahələrdə böyük potensiala malik olduğu vurğulanıb.

**“Qafqazın güclü iqtisadi ölkəsi olan Azərbaycanla siyasi, iqtisadi və mədəniyyət münasibətlərində necə yan keçmək olar? Fransa yaxşı anlayır ki, dünyanın stabil və regional aparıcı ölkələrinə ehtiyacı var. Buna görə də bu gün güclü iqtisadi inkişafı olan ölkələrlə ikitərəfli münasibətləri təşviq etmək zəruridir”**, - deyə jurnalist Elen Kuqo diqqətə çatdırıb.

Məqalədə qeyd edilir ki, əlverişli coğrafi mövqeyinə görə Azərbaycan əsas regional mərkəzdir və əsas marağı möhkəm iqtisadiyyata malik olmaqdır.

**“Azərbaycan inkişafda olan güclü ölkədir”**, - deyə ölkəmizi təqdim edən jurnalist son 20 ildə ölkəmizin yalnız karbohidrogen ehtiyatlarına güvənməyərək iqtisadiyyatın bütün sektorlarını şaxələndirdiyini diqqətə çatdırıb.

Ölkəmizin kənd təsərrüfatının inkişafından söz açılaraq bir çox yerli məhsulların ABŞ-dan tutmuş Yeni Zelandiyaya qədər dünyanın müxtəlif ölkələrinə ixrac edildiyi vurğulanıb. Azərbaycan şərablarının məşhur olmasından yazılıb.

Eyni zamanda, ölkəmizin ağır sənaye, logistika, ticarət, maliyyə xidmətləri, informasiya texnologiyaları kimi sahələrin inkişafından danışılıb.

Azərbaycanın dünya iqtisadi rəqabətlilik baxımından 37-ci yerdə qərarlaşdığı qeyd edilib. Ölkəmizin strateji geosiyasi məkanda yerləşdiyi, işsizliyin həcminin aşağı olduğu, bütün nəqliyyat növləri üzrə infrastrukturun genişləndirildiyi vurğulanıb. Böyük İpək Yolunun Bakı üçün keçmiş deyil, gələcək olduğu bildirilib.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfərindən və bu ölkənin rəsmi şəxsləri ilə görüşlərindən bəhs olunub. Qeyd edilib ki, görüşlərdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı məsələləri müzakirə edilib.

Azərbaycanın Birinci vitse-prezidentinin səfər çərçivəsində görüşdüyü fransız müəssisələrinin nümayəndələri görüşlərin məhsuldar olduğunu, iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu xüsusi qeyd ediblər.

Qafqaz regionunda Azərbaycanın Fransanın birinci iqtisadi tərəfdaşı olduğu vurğulanıb.

Qeyd edək ki, iqtisadiyyat üzrə ixtisaslaşmış “Luxus-Plus” portalının eyni adlı jurnalı da dərc olunur.

## Azərbaycan Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesini pozmaq cəhdlərinə imkan verMƏdi

Milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursuna malik olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və praqmatik xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərin, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir...

Bax səh. 6

## Xanlıqlar dövrünün metafizikası: Akademik Ramiz Mehdiyevin yeni kitabı haqqında ilk təəssüratlar

Akademik Ramiz Mehdiyevin “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabı işıq üzü gördüyü ilk andan etibarən elmi ictimaiyyətin böyük marağına səbəb olub. Çünki kitabda Azərbaycan tarixinin mühüm mərhələlərindən...



Bax səh. 3

## Əli Həsənovun əsərləri Buxarestdə rumın dilində nəşr edilib

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun “Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri” və “Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması” adlı əsərləri Buxarestdə rumın dilində çap olunub. AZƏRTAC xəbər verir ki, artıq on üçüncü dildə nəşr edilmiş əsərdə son iki əsrdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə...

Bax səh. 4

# Prezident İlham Əliyev Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan "Bakmil" stansiyasında yaradılan şəraitlə tanış olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan "Bakmil" stansiyasında yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, burada 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidənqurma işlərinə başlanılıb. Bura 1970-ci ildə açılıb və 9 il "Nərimanov" elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan "Bakmil" Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Yenidənqurma zamanı stansiyanın fəaliyyətini dayandırmamaq məqsədilə təmir-bərpa prosesi mərhələlərlə aparılıb. Yalnız ötən ilin avqustundan işlərin son mərhələsində sərnişinlərin stansiyadan istifadəsinə günün müəyyən saatlarında məhdudiyyətlər qoyulub. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzunömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə - platforma səviyyəsində qəbul etməsidir ki, bunun sayəsində də birinci mərtəbə yalnız xidməti sahəyə çevrilib.



Bundan başqa, əhəmiyyətli yeniliklərdən biri də açıq hava şəraitində yerləşən stansiya yolunun çətirlə örtülməsidir. Platforma boyunca bütün yol sahəsini əhatə edən çətir sərnişinləri və qatarları yağışdan qorumaqla yanaşı, burada gecə vaxtlarında qatar saxlanılmasına da imkan yaradır. Stansiyada bütün kommunikasiya xətləri təzələnib, yanğın təhlükəsizliyi ilə bağlı ən son texnologiyalara uyğun yeniliklər tətbiq edilib. Gözləmə zalında yeni asma tavan, müasir işıqlandırma və informasiya-məlumat sistemləri, turniketlər quraşdırılıb.

Stansiyanın ətrafında abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

# Azərbaycan islahatların yeni mərhələsinə başlayıb

## Prezident İlham Əliyev: İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur

*Son 15 ildə dünyaya nümunəvi inkişaf modeli təqdim edən müstəqil Azərbaycanın uğurlarını şərtləndirən mühüm amillərdən biri ölkədə konkret məqsədlərə hesablanan islahatların həyata keçirilməsi ilə bağlıdır. 2019-cu ilin əvvəlindən isə respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində diqqət çəkdiyi əsas məsələlərdən biri də məhz ölkəmizdə ardıcıl şəkildə həyata keçirilən və yaxşı nəticələr verən islahatlarla bağlıdır. İslahatların nəticələri göz qabağındadır. Dövlət başçısının siyasi iradəsi əsasında reallaşdırılan islahatlar ölkəmizin perspektivdə də dinamik inkişafının təmin olunmasına hesablanıb. Prezident İlham Əliyev bəhs olunan təbrikində qeyd edib ki, Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub.*



### AZƏRBAYCANDA APARILAN İSLAHATLAR HƏRTƏRƏFLİ SƏCİYYƏ DAŞIYIR

Ümumiyyətlə, son 15 ildə Azərbaycanda uğurla reallaşdırılan islahatlar bir qayda olaraq dərin konseptual əsaslandırmalar və yeni yanaşmalar əsasında hazırlanıb. İslahatlar hazırlanarkən və reallaşdırılarkən qlobal miqyasda meydana çıxan aktual çağırışlar və ölkəmizin potensialı mütləq nəzərə alınır. Əsas məqamlardan biri də ondan ibarətdir ki, islahatlar kompleks səciyyə daşıyır və bir-birini tamamlayır. Prezident İlham Əliyev ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artırılması, daxili istehsalın qorunması, sahibkarların vergi yükünün azaldılması yolu ilə vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının genişləndirilməsi, investisiya qoyuluşunun, ixracın təşviq edilməsi, "Made in Azerbaijan" brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən Fərman və sərəncamlar imzalayıb. Dövlət başçısının müvafiq Fərmanına əsasən milli iqtisadiyyat perspektivi və onun 11 əsas sektoru üzrə strateji yol xəritələri təsdiqlənib.

Beləliklə, ardıcıl şəkildə həyata keçirilən islahatlar Azərbaycanı iqtisadi cəhətdən müstəqil dövlətə çevirib. Qürur doğuran haldır ki, bu gün respublikamız rəqabət qabiliyyəti kifayət qədər yüksək olan iqtisadiyyata malikdir və heç bir kənar maliyyə mənbəyindən asılı deyil. Əksinə, özünün iqtisadi və maliyyə müstəqilliyini təmin edən Azərbaycan ölkə xaricində də nəhəng investisiya layihələri həyata keçirir. Bütövlükdə son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox genişlənib. O cümlədən cari ilin ilk iki ayında ölkə üzrə ümumi daxili məhsul 3 faiz artıb. Qeyd edək ki, bu, son illərin ən yüksək göstəricisidir. Daha böyük artım isə 15,5 faiz olmaqla qeyri-neft sənayesində qeydə alınıb ki, bu, dünya rekordudur. İqtisadi sektorda aparılan islahatların önəmindən bəhs edən Prezident İlham Əliyev vurğulayıb: **"İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır".**

*"İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır"*

Son 15 ildə Azərbaycanın mənzərəsini dəyişən, yeni müsbət reallıqların yaranmasını şərtləndirən amillər sırasında bütün ölkə boyunca tarazlı inkişafın təmin edilməsinə yönələn siyasi və maddi dəstək tədbirlərinin, o cümlədən də regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının rolunu xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərmanda da qeyd edildiyi kimi, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

Yuxarıda vurğuladığımız kimi, hazırda respublikamızda konkret hədəflərə hesablanan islahatların yeni mərhələsi başlayıb. Cari ilin əvvəlindən daha intensiv şəkildə həyata keçirilən islahatların mühüm bir bloku institusional sferanı əhatə edir. Dövlət başçısı tərəfindən 14 yanvar 2019-cu il tarixində və ondan sonrakı günlərdə struktur islahatları istiqamətində mühüm qərarlar qəbul edilib. Prezident İlham Əliyev həmçinin perspektivdə islahatların əhatə dairəsinin genişlənəcəyinin anonsunu verib: **"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir",** - deyə dövlət başçısı bildirib.

### ÖLKƏNİN İQTİSADİ İMKANLARI ARTDIQCA SOSİAL MƏSƏLƏLƏR DAHA GENİŞ MİQYASDA ÖZ HƏLLİNİ TAPIR

Azərbaycanda reallaşdırılan islahatların böyük bir qismi sosial sferanı əhatə edir. Prezident İlham Əliyev bildirib ki, bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. Hazırda ökəmizdə dövlət başçısı tərəfindən hələ ötən il elan olunan ciddi sosial paket uğurla reallaşdırılır. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyev cari ilin əvvəlindən ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə, gəlir imkanlarının artırılmasına hədəflənən bir sıra mühüm sənədlər imzalayıb. Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi" haqqında Fərmanı mənzil idarəçiliyi baxımından problemlərin həllinə gətirib çıxaracaq, vətəndaşların mənzil və yaşayış şəraitinin yaxşılaşmasına, o cümlədən sosial rifahının daha da yüksəlməsinə müsbət təsir göstərəcək.

*"Ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur"*

Azərbaycan Respublikasının Prezidentinin imzaladığı "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Sərəncamı və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması haqqında" Fərmanı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri artırılıb. Bununla da 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdlərinin orta hesabla 20 faiz artırılması təmin edilib. Dövlət başçısının imzaladığı "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 000 vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin əvvəllər mövcud olan 31 faizdən 2019-2020-ci tədris ilində 45 faizə, 2020-2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması nəzərdə tutulur.

Respublikamızda əməkhaqlarının artırılması tendensiyası 2019-cu ildə də davam etdirilir. Prezident İlham Əliyev 8 fevral 2019-cu il tarixində "Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" müvafiq Sərəncam imzalayıb. Qeyd edək ki, son 15 ildə Azərbaycanda minimum əməkhaqqı 6,5 dəfə artırılıb. Bəhs olunan Sərəncama əsasən, ölkəmizdə minimum əməkhaqqının yaşayış minimumuna (180 manat) çatdırılması təmin edilib.

Ölkəmizdə pensiyalar da mütəmadi qaydada artırılır. Prezident İlham Əliyev 7 fevral 2019-cu il tarixində "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, cari ilin yanvar və fevral ayı üzrə bu artımla bağlı əlavə olaraq 15 milyon manat vəsait yönəldilib. Bundan başqa, respublikamızda əmək pensiyasının minimum məbləği cari il martın 1-dən 38,5 faiz artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılıb. Qeyd edək ki, minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir.

Cari il fevralın 25-də isə Prezident İlham Əliyev "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" növbəti Sərəncam imzalayıb. Sənəddə də vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir.

Ölkəmizdə Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı müvafiq Fərmana əsasən müəyyən kateqoriyadan olan şəhid ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi həyata keçirilir. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixində imzaladığı digər Fərmanla isə birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Prezident İlham Əliyev ölkədə aparılan sosial islahatların əhatə dairəsinin kifayət qədər geniş olduğuna diqqət çəkərək deyib: **"Ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur".**

Respublikamızda 2019-cu ilin əvvəlindən intensiv şəkildə reallaşdırılan geniş sosial paket çərçivəsində problemli kreditlərlə bağlı mühüm qərar verilməsi çox doğru olaraq inqilabi xarakterli addım kimi səciyyələndirilir. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 2019-cu il 28 fevral tarixində "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir. Dövlət başçısının imzaladığı Fərmana əsasən, devalvasiya nəticəsində insanlara dəyən ziyanı dövlət ödəyəcək. Bütövlükdə Fərmanın əhatə dairəsinə 800 mindən çox insan düşür. Bunun üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək.

**Mübariz ABDULLAYEV**

# Xanlıqlar dövrünün metafizikası: Akademik Ramiz Mehdiyevin yeni kitabı haqqında ilk təəssüratlar

***Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı işıq üzü gördüyü ilk andan etibarən elmi ictimaiyyətin böyük marağına səbəb olub. Çünki kitabda Azərbaycan tarixinin mühüm mərhələlərindən birini təşkil edən xanlıqlar dövrü ilk dəfədir siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə işıqlandırılır.***

***AZƏRTAC tarixçi alimlər üçün yol xəritəsi hesab olunan bu dəyərli tədqiqat işi haqqında görkəmli alim, Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun qeydlərini təqdim edir.***



Hər bir xalqın tarixinin müxtəlif dövrlərində, mərhələlərində baş vermiş hadisələrin xronologiyasının bütün təfsilatı, təfərrüatı ilə (müxtəlif mənbələrin müqayisəsi əsasında) ortaya çıxarılıb tarix kitablarında maksimum dəqiqliyi ilə təsbit olunması həmin xalqın tərcümeyi-halının yeni nəslə çatdırılması baxımından nə qədər mühümdürsə, sözügedən hadisələrin (və xronologiyanın) metafizikasına və ya fəlsəfi mahiyyətinə varmaq, baş verənləri, ümumən, xalqın tarixi (və taleyi!) kontekstində təhlil edib dəyərləndirərək gələcəyin bu və ya digər dərəcədə əsaslı "yol xəritəsi"ni müəyyənləşdirmək ondan qat-qat böyük strateji əhəmiyyət kəsb edir. Lakin bunun üçün mənbəşünas-tarixçi səriştəsi ilə yanaşı, filosof və ideoloq təfəkkürü də tələb olunur ki, biz bunun təzahürünü akademik Ramiz Mehdiyevin müstəqillik illərində qələmə alınmış, demək olar, bütün əsərlərində görürük.

Bu günlərdə nəşr edilmiş "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı bu baxımdan istisna təşkil etməsə də, o mənada fərqlənir ki, burada yalnız "yol xəritəsi" müəyyənləşdirilmir, həm də Azərbaycan xalqının tarixinin bir dövrü - xanlıqlar dövrü əsasında tarixə münasibətin elmi metodu (metodologiyası) təqdim olunur. Bu da, əslində, nəzəri (fəlsəfi-ideoloji) miqyasına görə bütün dövrlərə münasibətdə keçərlidir.

Əlbəttə, hər hansı xalqın tarixi istər zəfərli, istərsə də məhrumiyyətli dövrləri ilə birgə bütövdür. Bununla bərabər, tarixdə elə məqamlar var ki, həmin məqamda buraxılmış səhvləri, yaxud məsuliyyətsizliyi tarix heç vaxt bağışlamır. Akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin təxminən yarım əsrlik bir zamanını əhatə edən xanlıqlar dövrünü məhz belə bir məqam hesab edərək göstərir ki, "Azərbaycanda mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının məhv edilməsi, həmçinin milli mədəniyyətimizin, təsərrüfat həyatının tənəzzülünə səbəb olmuş feodal hərc-mərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən, ən nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövr tarixşünaslığımızda hələ də öz layiqli siyasi qiymətini almamışdır".

Doğrudan da, xalqın öz tarixinin bu və ya digər dövrü haqqında səhih məlumatı yoxdursa, bu, sadəcə, məlumatsızlıq və ya biliksizlik səviyyəsində qalmır, ciddi "sosial yaddaş problemi"nə çevrilməklə onun ümumən taleyini təhdid edir və son dərəcə ağır nəticələrə gətirib çıxarır.

Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə ictimaiyyətimiz, xüsusilə də alimlərimiz özləri üçün birdəfəlik yəqin etməlidirlər ki, milli şüurun təşəkkülü prosesi, milli məfkurənin, düşüncənin yaranması kortəbii şəkildə baş vermir. Milli şüurun təşəkkülü dövlət quruculuğu qədər mürəkkəb və çoxmərhələli bir prosesdir. Onun düzgün istiqamətdə inkişaf etməsi, dayanıqlı və praktik cəhətdən faydalı olması üçün dərindən düşünülmüş, bütün zəruri detalların nəzərə alındığı çevik, mütəhərrik strategiya işlənib hazırlanmalıdır".

"Tariximizin xanlıqlar dövrü"nün müəllifi tamamilə haqlı olaraq qeyd edir ki, bizim nəinki ictimai, hətta elmi tarixşünaslıq şüurumuzda da həmin dövr barəsindəki təsəvvür çox hallarda dumanlı və ya yanlışdır. Bir sıra elə stereotiplər formalaşıb ki, onların aradan qaldırılması üçün istər elmi-intellektual, istərsə də mənəvi-ideoloji cəbhələrdə hələ çox mübarizə aparmaq lazım gələcək.

Akademik Ramiz Mehdiyev bir neçə strateji məqam üzərində ayrıca dayanır. Birinci məqam ondan ibarətdir ki, "xanlıqlar dönəmində Azərbaycan dövlətçiliyi Səfəvilər dövründən etibarən yaradılan, Nadir şahın hakimiyyəti illərində isə bir qədər möhkəmləndirilən mərkəzləşmə prinsipindən məhrum olur. Vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası və siyasi məharəti hesabına yaradılan, Azərbaycan türklərinin titul xalq statusunda idarə etdikləri böyük bir coğrafiyada irili-xırdalı onlarla feodal dövlətinin meydana gəlməsi siyasi böhranla yanaşı, böyük iqtisadi və mədəni tənəzzülə aparıb çıxarır". İkincisi, "xalqımızın məhz həmin siyasi dövrün səhvləri ucbatından ikiyə bölünməsi və bu günə qədər də parçalanmış vəziyyətdə yaşamağa davam etməsi ilə bağlıdır"... "Buraya tərəddüd etmədən türklərə qarşı tarixən bütün varlığı ilə kin bəsləyən və onu ilk fürsətdə ortaya qoyan erməni millətçiliyi amilini də əlavə etmək lazımdır".

Heç şübhəsiz, XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər istər Şimali, istərsə də Cənubi Azərbaycanda baş verən hadisələr Rusiya-Türkiyə-İran münasibətlərindəki hərbi-siyasi münaqişələr fonunda cərəyan edir. Lakin bu, "Azərbaycan xanlarının xalqın gələcək taleyinə etinasız münasibətinə, sərhəd tanımayan yersiz siyasi iddialarına, mənəm-mənəmliyinə bəraət qazandırmadığı kimi, onların üzərindəki tarixi məsuliyyəti də təmizləyə bilməz".

Kitabda göstərilir ki, Şimaldan gələn təhlükənin Azərbaycan xanlarını qəflətən yaxaladığı barədəki iddialar tamamilə yanlışdır. Hər şeydən əvvəl ona görə ki, "Azərbaycan xanları üçün I Pyotrun yürüşü zamanı baş verənlər o qədər də uzaq tarix deyildi və onlar cərəyan edən proseslərdən zəruri nəticələr çıxarmağa, sadəcə, borclu idilər. Siyasi lider, dövlət başçısı, ölkənin və xalqın taleyinə cavabdehlik məsuliyyətini öz çiyinlərinə götürən hər kəs baş verən prosesləri soyuqqanlı şəkildə təhlil edib, düzgün həll yolları tapmağa borcludur. Çünki o, yalnız özü üçün deyil, məsuliyyətini üzərinə götürdüyü xalqı, Vətəni üçün cavabdehlik daşıyır. Azərbaycan xanlarının heç birində belə bir müdrikliyə, təmkinə və ümumi mənafe naminə öz cılız iddialarını cilovlamaq böyüklüyünə rast gəlmək mümkün deyil.

...Üstəlik, bir məqamı da nəzərdən qaçırmamalıyıq ki, Azərbaycanın birləşdirilməsi üçün edilən cəhdlərin boşa çıxmasında ardıcıllıq amilinin olmaması ilə yanaşı, ayrı-ayrı xanların güclü müqavimət cəhdləri də az rol oynamamışdır. Öz müstəqilliyini, hakimiyyətini qorumaq məsələsində güzəştsiz mövqe tutan Azərbaycan xanları birləşmə istiqamətində atılan istənilən addıma inadla qarşı çıxır, kiçik ittifaqlar yaradaraq vahid dövlətin təşkilinə yönəlmiş bütün təşəbbüslərə silahla cavab verirdilər".

Məsələ burasındadır ki, Azərbaycanın xanlıqlara parçalanması, dünyanın tarixi gedişinin əksinə olaraq, orta əsrlərdə deyil, mərkəzləşmə hərəkatı üçün səciyyəvi sayılan yeni dövrdə baş verirdi. Digər bir paradoks da o idi ki, akademik Ramiz Mehdiyevin dəfələrlə xatırlatdığı kimi, əvvəl Şah İsmayıl Xətainin, sonra isə Nadir şahın mövcud siyasi, iqtisadi, inzibati və mənəvi- ideoloji şərtlər zəminində qurmuş olduqları kifayət qədər zəngin mərkəzləşmiş dövlət təcrübəsindən məsuliyyətsizcəsinə imtina etməklə baş verir, hətta həmin təcrübəyə (və varisliyə) hər cəhətdən sədaqətlə yanaşan Qacarlar hakimiyyətinə belə, lazımi etimad göstərilmirdi.

"Tariximizin xanlıqlar dövrü" müəllifinin aşağıdakı qənaətləri sözügedən dövrə ona görə tarixçi-mütəfəkkir interpretasiyasının məhsulu hesab olunur ki, burada tarix öz içinə qapılaraq qalmır, əksinə, müdrik bir məntiqin təkidi ilə özü-özünü izah etməsinə məcbur edilir:

"Əfsus ki, Azərbaycan xanlarının məsuliyyətsiz davranışları səbəbindən həm dövlətçilik tariximizdə, həm də siyasi ənənəmizdə dərin kök salmış separatçılıq təmayüllərinin ömrü xanlıqlar dövrü ilə bitməyib. Sözügedən təmayül bir xoşagəlməz ənənə kimi özünü tariximizin növbəti mərhələlərində, o cümlədən XX əsrin sonlarında dövlət müstəqilliyimizi yenicə bərpa etdiyimiz illərdə də büruzə vermiş və bu meylin müxtəlif xarici və daxili qüvvələr tərəfindən körüklənməsi Azərbaycanın bütövlüyünü, suverenliyini ciddi şəkildə təhlükə altına salmışdı. Tam əminliklə bildirirəm ki, əgər o dövrdə tarix səhnəsində Azərbaycan xalqının ümummilli lideri, zəngin idarəçilik təcrübəsinə malik, böyük siyasi iradə və səriştə sahibi Heydər Əliyev olmasa idi, bəzən ayrı- ayrı şəxslərin hakimiyyət hərisliyi ucbatından, bəzən isə xarici qüvvələrin əmri ilə alovlanan separatçılıq atəşində gənc dövlətçiliyimiz yanıb külə dönəcəkdi". Görkəmli tarix filosofu tamamilə haqlıdır ki, "xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır. Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi".




Heç şübhəsiz, "tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur". Odur ki, millətin öz tarixi ilə fəxr etməsi milli özünüdərk baxımından nə qədər önəmlidir. Bir millət olaraq biz, əlbəttə, ilk növbədə, Şah İsmayıl Xətainin, Nadir şahın övladlarıyıq, ancaq heç vaxt istisna edilə bilməz ki, milli ictimai şüurumuzun hansısa küncündə xanlıqlar dövrü "dərəbəyləri"nin mənəm-mənəmlik iddiaları mürgüləmir.

Akademik Ramiz Mehdiyev yazır: "Dövlət idarəçiliyində, iqtidar arasında kiçik bir çatın, ziddiyyətin yaranması kifayətdir ki, sadalanan dağıdıcı təmayüllər Azərbaycanın müstəqilliyini, dövlətçiliyini təhdid edəcək qədər böyük miqyas alsın. Məhz buna görədir ki, sözügedən amil, yəni, etnopsixologiyamızda mövcud olan və xalqımızın gələcək inkişafına mənfi təsir göstərə biləcək qüsurların islahı, yüksək siyasi mədəniyyətə və mütərəqqi təfəkkürə malik, öz Vətəninin həyati mənfəətlərinə sadiq olan cəmiyyətin təşkili azərbaycançılıq məfkurəsinin mühüm elementləri sırasına daxildir.

Həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, həm də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdikləri dövlət quruculuğu siyasətinin, yürütdükləri ictimai inkişaf xəttinin hədəfi yalnız dayanıqlı, müasir və güclü dövlətçiliyin yaradılması deyil, eyni zamanda, müasir baxışlara malik, tarixi-mənəvi köklərinə bağlı, sağlam düşüncəli vətəndaşların formalaşdırılmasıdır. Dövlət başçısı tərəfindən daim vurğulanan "insan kapitalı" anlayışı bütün digər mənaları ilə yanaşı, eyni dərəcədə haqqında danışdığımız ali məqsədi də ehtiva edir".

Əminliklə demək olar ki, müstəqillik illərində Azərbaycanda milli ictimai şüurun inkişafı üçün çox böyük işlər görülüb, xüsusilə Azərbaycan insanının təbiətində yüzillər boyu kök salmış ikinci, yaxud üçüncü dərəcəli olmaq kompleksi xeyli dərəcədə aradan qaldırılıb. Öz tarixinin üçüncü onilliyini başa vurmağa hazırlaşan müstəqil Azərbaycan dövləti təkcə Azərbaycan Respublikası vətəndaşlarının həmrəyliyinin, mənəvi-siyasi mütəşəkkilliyinin, xalq- iqtidar birliyinin nümunəsi olaraq qalmayıb, eyni zamanda, dünya azərbaycanlılarının etimadını qazanıb... Lakin unutmaq olmaz ki, dünyanın gərdişi kimi insanların xarakteri də mürəkkəb olaraq qalır və tarix həm müsbət, həm də mənfi mənada bizə yoldaşlıq etməkdədir.

Kitabda Şah İsmayıl Xətaidən başlayan mərkəzi hakimiyyət (və dövlət bütövlüyü) uğrunda mübarizənin XVIII əsrin sonlarına doğru Ağa Məhəmməd şahın timsalında Qacarlar tərəfindən davam etdirilməsinə, ümumiyyətlə, Qacarlar xanədanının tarixinə geniş yer ayrılıb ki, bu da səbəbsiz deyil. İstər Azərbaycan tarixşünaslığında, istərsə də ictimai-mədəni fikrində həmin dövrün müxtəlif mərhələləri, yetirdiyi görkəmli şəxsiyyətlər haqqında fərqli, çox hallarda isə həqiqətə uyğun olmayan mülahizələr, hətta haqq-ədalət naminə belə aradan qaldırılması çətin olan "qələti-məşhur"lar mövcuddur. Böyük şair Səməd Vurğunun "Vaqif" dramındakı Şah Qacar obrazı on illərlə Azərbaycan tarixinin görkəmli şəxsiyyəti barədə cəmiyyətdə elə bir neqativ təsəvvür yaradır ki, həmin təsəvvürün təkzibi üçün hələ çox illər lazım gələcək. Ancaq söhbət ondan getmir ki, "Vaqif" dramının müəllifinin, yaxud Şah Qacar rolunun ifaçısı Sidqi Ruhullanın qeyri-adi istedadı inkar olunmalı, yaxud onların tarixi şöhrətinə hər hansı şəkildə kölgə salınmalıdır. Məsələnin mahiyyəti ondadır ki, Qacarlar xanədanının əsasını qoymuş Ağa Məhəmməd şah Qacarın da halal tarixi şöhrətinin özünə qaytarılmasına ehtiyac var. Tariximizin xanlıqlar dövrünü araşdıran müəllif, haqlı olaraq qeyd edir ki, "addım-addım tarixi həqiqətlərə yaxınlaşmaq, keçmişin qaranlıq səhifələrinə işıq salmaq, təhrifləri aradan qaldırmaq naminə var gücümüzlə çalışmalıyıq. Başqa bir yol axtarmaq da mənasızdır, ən əsası ona görə ki, bunu, bizdən başqa etmək istəyində olan kimsə yoxdur!".

Akademik Ramiz Mehdiyevin Qacarlar xanədanının həm etnik, həm də siyasi genotipi barədəki mötəbər mənbələrə, konkret faktlara əsaslanan qənaətləri, heç şübhəsiz, metodoloji mahiyyəti, zəngin məzmun-mündərəcəsi etibarilə olduqca mükəmməl milli tarixşünaslıq dərsləridir ki, həmin dərsləri bu səviyyədə demək üçün tarixi bilmək azdır, hər cəhətdən geniş dünyagörüşünə, fəlsəfi təfəkkürə əsaslanan səmimi milli dövlətçilik təəssübkeşliyi də tələb olunur: "Qacarların Azərbaycan tarixinə və dövlətçilik ənənələrinə aid olmadığına özlərini inandıranlar bir faktı da heç zaman unutmasınlar ki, Pəhləvilər İran dövlətçiliyinin yaranma tarixi, təməli qismində nə Səfəviləri, nə də Nadir şahı əsas götürmürdülər. Onlar İran dövlətçiliyinin yaradılması, atası və ideoloqu qismində Əhəmənilər imperiyasının qurucusu, etnik cəhətdən fars olan II Kiri (e.ə. 559-530-cu illər) ucaldır, ona istinad edirdilər. Həmin dövrdə İranın dövlətçilik tarixi üçün əhəmiyyət daşıyan bütün əlamətdar mərasimlərin məhz Kirin Şirazdakı məqbərəsi önündə təşkil edildiyi hər kəsə məlum olan faktdır. Zənnimcə, Pəhləvilərin bu davranışları fonunda Qacarların öz siyasi varisliklərinin və mənəvi-tarixi mənsubiyyətlərinin istinadgahı qismində Azərbaycanı və türk mənşəli Səfəviləri və Nadir şahı seçməsi faktları onların hansı təfəkkürün daşıyıcıları olduqlarını aydın şəkildə nümayiş etdirir".

Qacarlar sülaləsinin banisinin "vəliəhdin, sadəcə, atası deyil, anası da Qacarlar soyundan olmalıdır" göstərişini təhlil edən akademik Ramiz Mehdiyev göstərir ki, "məsələyə müasir demokratik anlayışlar prizmasından yanaşdıqda Ağa Məhəmməd şahın belə bir qaydanı qanun şəklinə salması tayfabazlığın və klançılığın, feodal təfəkkürünün təzahürü kimi görünə bilər. Ancaq bu məsələdən danışarkən iki məqamı da unutmaq olmaz. Birincisi, Ağa Məhəmməd şahın hakimiyyətə gəldiyi dövrdə bütün Yaxın Şərqdə olduğu kimi, Azərbaycanda və İranda da feodalizm dövrü hökm sürür, bütün münasibətlər sistemi orta əsr normaları ilə tənzimlənirdi. İkincisi isə, barəsində danışdığımız qanun Qacarların simasında hakimiyyətin Azərbaycan türklərindən başqa hər hansı digər etnik qrupun, o cümlədən farsları təmsil edən siyasi qüvvənin ixtiyarına keçməsinin qarşısına sədd çəkmiş olurdu".

Kitabda Qacarların XIX əsrin sonu, XX əsrin əvvəllərində maarifçiliyə, milli oyanışa, demokratik hərəkatlara münasibətinə dair də maraqlı mülahizələr irəli sürülməklə, bir sıra polemik məsələlərə aydınlıq gətirilir ki, onlardan biri də ana dilində təhsilin vəziyyətidir: "Azərbaycan dilində tədrisə marağın olmaması Qacarlardan deyil, ümumən İranda əsrlərdən bəri hökm sürən məlum ənənə və dəbdən qaynaqlanmaqda idi. Lakin Qacarlar heç zaman azərbaycanlı maarifçilərin ana dilində məktəb açmaq təşəbbüslərinə mane olmamış, bu ideya uğrunda mübarizə aparanlara qarşı heç vaxt dövlət səviyyəsində hər hansı bir təqib həyata keçirməmişlər. Faktlar göstərir ki, ana dilində müasir, dünyəvi təhsil ideyasını həyata keçirmək istəyənlər daha çox yeniliklərə, tərəqqiyə, müasirliyə qənim kəsilən mühafizəkar, xurafatçı ruhanilərin müqaviməti ilə qarşılaşmış, onlar tərəfindən təzyiqlərə məruz qalmışlar. Bu cür hallar o dövrdə təkcə Qacarlar dövləti üçün deyil, bütün İslam dünyası, o cümlədən Qafqaz Azərbaycanı üçün də xarakterik idi".

Bununla belə, kitabda hakimiyyət tərəfindən həm mənəvi, həm də maddi dəstək alaraq anadilli məktəblər açan Mirzə Həsən Rüşdiyyənin maarifçilik fəaliyyətinin geniş işıqlandırılması bir daha sübut edir ki, Qacarlar türk-Azərbaycan dilinin ölkədə (və onun hüdudlarından kənarda) yayılmasında hər halda maraqlı olduqlarını gizlətməmişlər.

XX əsrin əvvəllərində İran azərbaycanlılarının ictimai-siyasi fəallığı da təsadüfi deyil. Tamamilə doğrudur ki, "1905-1911-ci illərdə İranda demokratik təsisatların qurulması uğrunda aparılan və Səttarxan kimi görkəmli şəxsiyyəti tarix səhnəsinə çıxaran inqilabi hərəkat məhz Təbrizdən başlamış, onun başlıca hərbi və siyasi qüvvəsini sona qədər əsasən Azərbaycan türkləri təşkil etmişlər. İran öz tarixində parlamentarizm ənənələrinin yaranmasına və ilk konstitusiyanın qəbuluna görə məhz sözügedən hərəkata, yəni Azərbaycan xalqının mübarizliyinə, mütərəqqi siyasi təfəkkürünə borcludur. Səttarxanın qiyamı yatırılsa da, onun işini bir neçə il sonra Azərbaycan xalqının digər görkəmli oğlu Xiyabani davam etdirmişdir". Bu isə o deməkdir ki, hakimiyyət mənsub olduğu etnosun yaradıcılıq istedadını, mənəvi iradəsini, ictimai-siyasi fəallığını nəinki məhdudlaşdırırdı, əksinə, onun qarşısında, təbii ki, mövcud şərait hüdudunda hər cür imkanlar açırdı.

Akademik Ramiz Mehdiyev yazır: "Qacarların hakimiyyətinin son dövrünə nəzər saldıqda biz açıq-aşkar mərkəzi hökumətin zəiflədiyi, feodal hakimlərin, nüfuzlu ordu komandanlarının mərkəzlə hesablaşmayacaq qədər gücləndiyinin şahidi oluruq. Yaranmış vəziyyət siyasi hakimiyyətdə fars əsilli məmurların, xüsusilə də ingilislərin dəstəyi ilə çoxalmasına, onların həlledici vəzifələrə irəli çəkilməsinə münbit zəmin hazırlamışdır. İllər sonra həmin məmurlardan biri, Qacar ordusunun polkovniki, qatı fars millətçisi Rza şah Pəhləvi (1878-1944) ingilislərin bilavasitə hərbi və maddi dəstəyi ilə 1925-ci ildə hakimiyyəti ələ keçirir".

Göründüyü kimi, kitabda Qacarların siyasi aqibəti mərkəzləşmiş dövlət qurmaq (və onu idarə etmək) üçün tələb olunan təxirəsalınmaz tədbirlər görmək barədəki tarixi təcrübəyə əsaslanan ideya-anlayışlarla çox aydın bir şəkildə izah olunur.

Müəllif yenidən xanlıqlar dövrünə qayıdaraq təkzibolunmaz bir qanunauyğunluq təqdim edir: "Toxunduğumuz faktları ümumiləşdirib təhlil etdikdə maraqlı bir qanunauyğunluqla rastlaşmağımız göz önündədir. Həmin qanunauyğunluq isə öz hakimiyyəti, taxt-tacı naminə çarizmlə müttəfiqlik münasibətlərinə gedən Azərbaycan xanlarının hamısının faciəli sonluğundan ibarətdir. İbrahim xanın və ailəsinin qətli, Səlim xanın və Mustafa xanın Azərbaycandan didərgin salınması bunun ən bariz nümunələrini təşkil etməkdədir. Həqiqətən də bütün bunlar ətrafında çox ciddi düşünüləsi faktlardır!".

Xanlıqlar dövründə erməni məsələsi kitabda bilavasitə mənbələrə dayanılaraq bütün təfsilatı (və metafizikası) ilə təhlil edilib ümumiləşdirilir. Həmin mənbələrdən biri 1805-ci il mayın 14-də Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında imzalanmış Kürəkçay müqaviləsidir. Kitabda göstərilir ki, "müqavilənin mətnində Qarabağdakı erməni məlikləri, onların hüquqları, yaxud siyasi vəziyyəti haqqında bir müddəa belə mövcud deyil. Şübhəsiz ki, əgər həmin dövrdə ermənilər Qarabağ xanlığının ictimai-siyasi həyatında ciddi nüfuz və təsir sahibi olsaydılar, Rusiya onlardan təzyiq aləti qismində istifadə etmək imkanından mütləq şəkildə bəhrələnərdi. Onlar üçün müəyyən imtiyazlar və xüsusi status tələb edilərdi".

Başqa bir mühüm mənbə Fətəli şah Qacarın 1800-cü ilin oktyabrına aid fərmanıdır. Həmin fərman tam aydınlığı ilə nümayiş etdirir ki, erməni katolikoslarını tutduqları vəzifəyə məhz şah təsdiq etməli idi... "Sual olunur ki, əgər ermənilərin İrəvan ərazisində müstəqil dövləti var idisə, onların katolikosunu niyə erməni hökmdarları yox, Səfəvi, Əfşar, yaxud Qacar şahları vəzifəyə təsdiqləməli idi? Yaxud da hansı səbəbdən erməni kilsəsinə tətbiq edilən vergi güzəştlərinə dair fərmanları erməni hökmdarları yox, məhz türk şahları verirdilər? Qoyulan suallar ətrafında ermənilərdən daha çox onların yalançı təbliğatına alət olan bəzi əcnəbilər bir qədər dərindən düşünə bilsəydilər, çox yaxşı olardı".

Xanlıqlar dövrünün metafizikası bizim tarixi şüurumuzda, əlbəttə, yalnız bədbinlik doğurmamalıdır... "Azərbaycan ərazilərinin ayrı-ayrı xanlıqlara parçalanması, vahid mərkəzləşdirilmiş dövlətçiliyin itirilməsi və bəzi xanlıqların acınacaqlı aqibəti istər-istəməz ölkədə yenidən birləşmək və bütöv, müstəqil dövlət yaratmaq zərurətini meydana qoymuşdur. İkincisi isə, Azərbaycan xanlıqlarından hər biri o qədər də böyük əraziləri əhatə etmədiyindən, bəlli bir coğrafiyada fəaliyyət göstərdiyi üçün xalqa yaxın olmuşdur".

"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı, sözügedən dövrün mədəniyyətindən qısaca da olsa (çünki həmin mövzu kitabın predmetinə bilavasitə daxil deyil), söhbət açır: "Hakimiyyətlə xalqın yaxınlaşması şifahi xalq yaradıcılığının, xalq sənətinin, aşıq ədəbiyyatının inkişafında və nəhayət, yazılı ədəbiyyatda folklor ənənələrinin qüvvətlənməsində mühüm rol oynamışdır. XVIII əsrdə Molla Pənah Vaqifin şeirlərində xalq həyatı və sadə insanlar, ölkə təbiətinin real mənzərələri tərənnüm olunmuşdur".

Yeri gəlmişkən, mən hələ 1991-ci ildə "XVIII əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişəm. Odur ki, əminliklə deyə bilərəm: Azərbaycan Səfəvilərinin milli (və siyasi) mərkəzləşdirmə təcrübə-ənənələri həmin dövrə qədər davam etsəydi, həm ədəbi dilimizin, həm də ədəbiyyatımızın mövcud intibah imkanları elə bir miqyas alardı ki, sonrakı mərhələlərdə hər hansı təcavüz onu öz mehvərindən çıxara bilməzdi.

Kitaba Azərbaycan dilinə tərcüməsi ilə birlikdə son dərəcə qiymətli mənbələrin, onların izahının, eləcə də xanlıqlar dövrü tarixi şəxsiyyətləri, hadisələri barədə dəqiq məlumatların əlavə edilməsi böyük məmnunluq doğurur.

Kitabda dərin analitik təhlil, mükəmməl məntiqi-fəlsəfi ümumiləşdirmə ilə yanaşı, hər cəhətdən canlı bir epos təhkiyəsi də var ki, oxucunu sona qədər öz təsiri altında saxlamaqla ona həm məlum mənbələrə yeni gözlə baxmağı öyrədir, həm də üzə çıxarılmış yeni mənbələrdəki məlumatların həyəcanını yaşamağı aşılayır. Eyni zamanda, tarixlə bu günün arasında elə bir körpü salır ki, tarixdə bu gün, bu gündə isə tarix bütün əzaları ilə görünür.

Heç şübhəsiz, bu fundamental tədqiqatın dəyərini bir məqalə ilə müəyyənləşdirmək mümkün deyil. Mən yalnız ilk təəssüratlarımı bildirdim. Əsərdə irəli sürülmüş hər bir müddəa, mülahizə isə geniş müzakirələrin predmeti olmağa layiqdir.

Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixlə ciddi maraqlanan hər kəsin, xüsusilə tarixşünasların stolüstü kitabı olmalıdır. Yalnız tarixi öyrənmək üçün deyil, həm də onu sözün əsl mənasında mənimsəmək, dərk etmək, milli şüur faktına çevirmək üçün...

# Əli Həsənovun əsərləri Buxarestdə rumın dilində nəşr edilib




Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" və "Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" adlı əsərləri Buxarestdə rumın dilində çap olunub.

AZƏRTAC xəbər verir ki, artıq on üçüncü dildə nəşr edilmiş əsərdə son iki əsrdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti təhlil olunur. Kitabın rumın dilinə tərcüməsinə məsul Vaqif Həsənovdur.

Mənbələrə əsasən kitabda təsdiq edilir ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalıb. Kitabda göstərilir ki, XIX əsrin sonunda - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdıqdan sonra, erməni millətçilərinin "böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoyub və öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda türk-müsəlman əhalisinə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar.

Ümumiyyətlə, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. Monoqrafiyada 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş soyqırımlarının Bakı, Quba, Şamaxı ilə yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlının qətlə yetirilməsi elmi mənbələrə əsasən tədqiq edilir.

Kitabda xarici dillərdə Azərbaycan tarixinin ayrı-ayrı dövrlərinə dair sənədlər və xəritələr, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və fotolar da yer alıb.

Bununla yanaşı, əsərdə XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlığı, o cümlədən 1988-1993-cü illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti elmi mənbələr əsasında araşdırılır. Müəllif göstərir ki, bütün dövrlərdə olduğu kimi, ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti də kütləvi qırğınlarla müşayiət olunub. Belə ki, bu illərdə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirib, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq daha 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan) işğal edib. Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min nəfərdən çox azərbaycanlı öldürülüb, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub, torpaqlarımızın 20 faizi işğala məruz qalıb, bir milyona yaxın azərbaycanlı öz doğma yurdlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilib.

Xüsusilə əsərdə XX əsrin sonlarında ermənilərin Xocalıda törətdikləri soyqırımı aktı bütün insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi səciyyələndirilir. Əsərdə 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinin işğalı zamanı dinc azərbaycanlı əhaliyə qarşı törədilən vəhşiliklər xarici mənbələrə əsasən geniş təhlil edilir. Həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu strateji əhəmiyyətli ərazinin tarixinə nəzər salınır, Xocalı şəhərinin əhəmiyyətini artıran səbəblər göstərilir.

Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri ən ağır cinayət kimi araşdırılan kitabda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, Xocalı soyqırımına siyasi-hüquqi qiymətin verilməsi istiqamətində görülən işlər, xüsusilə, Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması məsələləri geniş tədqiq olunur. Həmçinin, kitabda Xocalı soyqırımının tanınması ilə bağlı indiyə kimi qəbul edilən sənədlər də öz əksini tapmışdır.

Əsərdə müəllif diqqətə çatdırır ki, Xocalı soyqırımı dünya tarixində heç vaxt unudulmayan Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli soyqırımlardan heç də geri qalmır və adıçəkilən hadisələr dinc əhalinin soyqırımı olaraq bütün dünyada geniş əks-səda doğurub.

Kitab Ermənistanın etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin dünya ictimaiyyətinə daha geniş miqyasda çatdırılması və ifşa olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Strasburqda "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabının təqdimatı olub






Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği çərçivəsində ərsəyə gətirdiyi "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabının Strasburqda təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Strasburqun mərkəzi "Kleber" kitab evində təşkil olunan tədbirdə tanınmış elm, siyasət, ədəbiyyat adamları, Avropa institutları, eləcə də Avropa Məhkəməsinin əməkdaşları, jurnalistlər və yerli ictimaiyyət nümayəndələri iştirak ediblər.

Fransada fəaliyyət göstərən "Kapaz" nəşriyyat evi tərəfindən tərcümə və nəşr edilmiş "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabında XIX-XXI əsr Azərbaycan yazıçılarının hekayələri yer alıb.

Moderator Tyeri Edmond tədbir haqqında məlumat verdikdən sonra Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin rəhbəri səfir Fəxrəddin İsmayılov çıxış edib. Səfir Azərbaycan Dövlət Tərcümə Mərkəzi və "Kapaz" nəşriyyat evinin sıx əməkdaşlığının məhsulu olan "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabının Fransada nəşrini təqdir edib və bu kitabın Avropada xalqımızın zəngin mədəniyyətinə açılan bir pəncərə olduğunu bildirib.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin idarə heyətinin sədri Afaq Məsud mərkəzin yaradılması və fəaliyyəti haqqında qısa məlumat verərək, ədəbiyyatın ali missiyasından - ayrı-ayrı irqləri və millətləri təmsil edən dünya xalqlarının, əslində eyni ağrıların və sevgilərin daşıyıcısı olmasından, bədii ədəbiyyatın tarixboyu bu qədim və əzəli doğmalığı dünya fikir müstəvisində yaşatmasından söz açıb, Azərbaycan dövlətinin, eləcə də Heydər Əliyev Fondunun milli ədəbiyyatımızın dünyada təşviqinə göstərdiyi qayğı və diqqəti vurğulayıb.

Sonra Strasburq Universitetinin Türk Araşdırmaları Departamentinin direktoru, professor Stefan dö Tapia Azərbaycanın yerləşdiyi coğrafi ərazi, keçdiyi tarixi yol, daşıyıcısı olduğu mədəniyyət və mənsub olduğu dil qrupu haqqında məlumat verib.

Strasburq Universitetinin Dillər fakültəsinin dekanı, professor Jan-Pol Meyer kitaba daxil edilmiş əsərlərdən söz açaraq, fikirlərini bölüşüb. O, kitabda yer almış hekayələrin əsas mövzularına diqqəti çəkərək, Mir Cəlalın "Dissertasiya" hekayəsindən bir parça səsləndirib.

Tanınmış fransız yazıçı Mişel Kop xüsusilə onu təsirləndirmiş hekayələr və onların süjetləri haqqında danışaraq, A.Məsudun "Dovşanın ölümü" hekayəsini auditoriya üçün səsləndirib.

Fransada fəaliyyət göstərən "Kapaz" nəşriyyat evi adından çıxış edən Nicat Kazımov, Dilbadi Qasımov, Jan Emmanuel Medina, nəşriyyatın rəhbəri Albert Vak nəşriyyat evinin fəaliyyəti haqqında ətraflı məlumat verib və perspektivlər haqqında düşüncələrini bölüşüblər.

Sonda tədbirə qoşulan kitabsevərlərin sualları cavablandırılıb, fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, yaxın zamanlarda XIX əsrdən bu günədək ədəbiyyatımızın nümunələrini əks etdirən "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabını Fransanın regionlarındakı kitabxanalarda, eləcə də internet vasitəsi ilə əldə etmək mümkün olacaq.

# Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidən qurulub



Martın 27-də Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidənqurmadan sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin direktoru Behruz Əzimov çıxış edərək deyib ki, Maye-Qaz Anbarında və Qazdoldurma Stansiyasındakı binalar, çənlər, elektrik avadanlıqları, borular və digər avadanlıqlar 1961-ci ildə istismara verilmişdi. Bütün avadanlıqlar və tikililər istismara yararlılıq müddətini başa vurmuş, kompressor və nasoslar köhnəlmiş, istismara yararsız vəziyyətə düşmüşdü. Həmçinin alternativ enerji mənbəyi olmadığından enerji kəsilən zaman çətinliklər yaranırdı. Eyni zamanda, müəssisə yaşayış binalarının əhatəsində yerləşdiyindən təhlükə yaradırdı. Ali Məclis Sədrinin tapşırığından sonra müvafiq ərazi seçilərək müasir kompleks inşa olundu. Bu da imkan verəcəkdir ki, muxtar respublika əhalisinin, müəssisə və təşkilatlarının maye qaza olan tələbatı tam ödənilsin. Behruz Əzimov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: **"Bu gün ölkəmizdə insan amilinə yüksək qiymət verilir. İnsanların təhlükəsiz və rahat yaşayışı diqqətdə saxlanılır. Muxtar respublikada da bu istiqamətdə tədbirlər görülür. Uzun illərdir fəaliyyət göstərən Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası istismar müddətini başa vurmuşdu. Bu da həmin ərazidə yaşayanlar və işçilər üçün təhlükə yaradırdı. Ona görə də Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması üçün qərar qəbul edildi, ərazi seçildi, vəsait ayrıldı və bu işlər həyata keçirildi. Yaradılan şərait kollektivin iş şəraitinin yaxşılaşdırılmasına, eləcə də əvvəlki ərazidə yaşayan insanların təhlükəsizliyinin təmin olunmasına imkan verəcəkdir. Görülən işlər ölkəmizin inkişafının göstərici olmaqla yanaşı, həm də dövlətimizin insan amilinə verdiyi qiymətin daha bir ifadəsidir".**



Ali Məclisin Sədri deyib: **"Muxtar respublikada bütün yaşayış məntəqələri qazlaşdırılıb. Lakin qaz balonlarından istifadə edən təsərrüfat adamlarının, xüsusilə maye qazla işləyən avtomobillərin sayı artır. Tələbatın ödənilməsi üçün, ilk növbədə, müasir mərkəz qurulmalı idi. Bundan sonrakı mərhələdə isə rayon mərkəzlərində qazdoldurma stansiyaları qurulacaqdır. Həyata keçirilən bu tədbirlər nəticəsində yeni iş yerləri də açılacaqdır".**

Ali Məclisin Sədri deyib: **"Müasir Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi muxtar respublikada fövqəladə halların qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Çünki ötən il muxtar respublikada fövqəladə hallar zamanı müəssisə və təşkilatların işinin təşkilinə dair keçirilən müşavirədə qarşıya qoyulan əsas vəzifələrdən biri də Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması idi. Müşavirədən ötən dövrdə müvafiq tədbirlər görülmüş, təhlükəli hallar müəyyənləşdirilərək aradan qaldırılmışdır. Hazırda muxtar respublikada bütün təşkilatlar və obyektlər fövqəladə hallara tam hazırdır".**

Ali Məclisin Sədri Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının qurulmasında əməyi olanlara təşəkkürünü bildirib, kollektivə fəaliyyətlərində uğurlar arzulayıb.

Məlumat verilib ki, yeni tikilmiş Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasında ümumi tutumu 200 kubmetr olan 4 çən qurulub. Çənlərdə 95,2 ton maye qaz saxlamaq mümkündür. Yenidənqurma işləri zamanı təhlükəsizlik qaydalarına və standartların tələblərinə tam əməl olunub. Müəssisədə müasir soyutma, işıqlandırma və video-nəzarət sistemləri, hava kompressoru, reduktor, rəqəmsal generator, 3 tərəzidən ibarət elektron dolma aparatı və təhlükəsizlik açarları quraşdırılıb, yanğınsöndürmə avadanlıqları qoyulub. Elektron dolma aparatı vasitəsilə 40 saniyədə istənilən ölçüdəki balonları doldurmaq mümkündür. Yeni nasoslar isə saatda 15 ton maye qaz boşaltmaq gücünə malikdir.

Müəssisədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən 24 saat təhlükəsizliyə nəzarət olunur. Hər hansı bir təhlükə yarandıqda həyəcan siqnalı işə düşür və sistem avtomatik olaraq bütün avadanlıqları bağlayır. Eyni zamanda, çənlərin üzərindəki qoruyucu açarlar da yüksək təzyiq olduğu zaman avtomatik olaraq açılır, təzyiq normala düşdükdə isə bağlanır. Bundan əlavə müəssisədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə tutumu 2,5 ton olan köpük çəni quraşdırılıb.

Ərazidə maye qazla işləyən avtomobillər üçün yanacaqdoldurma məntəqəsi də istifadəyə verilib.

Ali Məclisin Sədri təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması, ərazidə yaşıllıqların salınması və muxtar respublikanın rayonlarında da qazdoldurma məntəqələrinin qurulması barədə tapşırıqlar verib.

# "The Washington Times" Azərbaycanın iqtisadi-siyasi nailiyyətlərindən yazıb




ABŞ-da çıxan "The Washington Times" qəzetində amerikalı siyasi şərhçi, Beynəlxalq Münasibətlər Şurasının üzvü Monika Kroulinin Azərbaycanın iqtisadi və siyasi nailiyyətlərindən bəhs edən məqaləsi dərc olunub.

ABŞ şərhçilərindən ibarət nümayəndə heyətinin tərkibində bu yaxınlarda Bakıda olmuş M.Krouli yazır ki, ölkədə vüsət alan tikinti bumu XX əsrin hüdudlarındakı Texası xatırladır. Lakin bu bum ayfonların, "Starbucks" kafesinin və Bakı küşələrində "Uber"in olması ilə müşayiət edilir.

Azərbaycanda bütün söhbətlər enerji sektoru - neft, təbii qaz, boru kəmərləri, beynəlxalq neft müqavilələri ilə bağlıdır. Neft-qaz sahəsi Azərbaycanın ümumi daxili məhsulunun 41 faizini və onun ixracatının 90 faizini təşkil edir. M.Krouli yazır ki, sovet hakimiyyətinin onilliklər boyu sürən əsarətindən sonra Azərbaycanda əsasən neft və qazın hərəkətə gətirdiyi kapitalizm özünə möhkəm yer edib.

Müəllif vurğulayır ki, bu qədim torpaqda köhnə nə varsa, yeni görkəm alır. Marko Polonun İpək Yolu - Asiyadan İrana və Avropaya qədim ticarət yolları Azərbaycandan keçib. Bu gün Yeni İpək Yolu yaradılır. Krouli məqaləsində Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun onunla söhbətində səsləndirdiyi fikirlərə də yer ayırır. Qeyd edir ki, bu İpək Yolunda Şərqi Asiyanın iqtisadi mərkəzlərini böyüməkdə və təşəkkül tapmaqda olan Qərb bazarları ilə birləşdirən müasir nəqliyyat və kommunikasiya şəbəkələri üstünlük təşkil edir. O vaxt olduğu kimi, indi də Azərbaycan bu ticarət yolunun mərkəzi stansiyasıdır. Xəzər dənizinə çıxışının olması ölkəyə enerji resurslarının qlobal axını üçün mühüm tranzit və logistika mərkəzinə çevrilmək imkanı verib.

Sonra Krouli SOCAR-ın vitse-prezidenti Elşad Nəsirovla görüşündən, Səngəçal terminalına səfərindən söz açır. Yazır ki, Xəzər dənizinin nəhəng enerji resursları Aralıq dənizi hövzəsinə "səyahətinə" "British Petroleum" şirkəti ilə əməkdaşlıq şəraitində idarə olunan bu terminaldan başlayır. Azərbaycan enerji resurslarının Avropaya idxalının şaxələndirilməsinə xüsusi töhfə verir.

Müəllif Azərbaycanın iqtisadi nailiyyətlərinə münasibət bildirərək, ölkə iqtisadiyyatının şaxələndirilməsinin əhəmiyyətindən, ölkə rəhbərliyinin aqrar biznesi inkişaf etdirmək və xarici investisiyalar cəlb etmək səylərindən yazır. Vurğulayır ki, neft-qaz sahəsinin üstünlük təşkil etməsinə baxmayaraq, hökumət bərpa olunan enerji mənbələrinə, o cümlədən külək enerjisinə sərmayə yatırır.

Monika Krouli fikrini belə tamamlayır: **"Azərbaycanın coğrafi mövqeyi onun təkcə iqtisadi sahədə iri aktor olmasına deyil, geostrateji aktor olmasına da geniş imkanlar açır. Azərbaycan İslam dünyasında ilk demokratik, dünyəvi və parlamentli respublika və dünyada qadınlara seçki hüququ vermiş ilk ölkələrdən biri olub. Dünyanın bu hissəsində sosial və siyasi sabitlik nadir haldır. Bəlkə də bu, Azərbaycanın neft və qazdan daha dəyərli məhsuludur".**

# İstanbulda İƏT-in Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası keçirilib







Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda İslam ölkələrinin dövlət və hökumət nümayəndələri iştirak edirlər. 42 ölkənin nümayəndəsinin qatıldığı iclasda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti təmsil edir.

"Yeni Zelandiyada iki məscidə terror hadisəsi, müsəlmanlara qarşı nifrət və dözümsüzlüklə mübarizə" mövzusunda keçirilən növbədənkənar iclasın açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Prezident ötən həftənin cümə günü Yeni Zelandiyada baş verən qanlı hadisə ilə bağlı İƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasının keçirilməsinin və bu məsələ ilə bağlı dünyaya mesaj verilməsinin zəruriliyini diqqətə çatdırıb. Prezident Türkiyənin İslam dünyasına qarşı planlı şəkildə həyata keçirilən, bütün insanlığa zidd hadisələrə biganə qalmayacağını vurğulayıb.

Prezident Ərdoğan təşkilatın bu toplantısının vacibliyini ifadə edərək, iclasda bir sıra məsələlərin araşdırılacağını və yekun qərarların veriləcəyini bildirib.

Tədbirdə çıxış edən Mübariz Qurbanlı bu müzakirələrə şərait yaratdığına və İslam dünyasında baş verən hadisələrə yüksək həssaslıq nümayiş etdirdiyinə görə Türkiyə Respublikasına dərin minnətdarlığını çatdırıb.

M.Qurbanlı bildirib ki, Azərbaycan terrordan əziyyət çəkən bir ölkə kimi dünyada baş verən terrorizmi beynəlxalq sülh üçün ən ciddi təhlükələrdən, müasir bəşəriyyətin üzləşdiyi ən amansız bəlalardan biri hesab edir. Eyni zamanda, biz bu ümumbəşəri bəlanı doğuran səbəblər və onun yayılmasına şərait yaradan şərtlərlə də ciddi mübarizə aparmalıyıq. Həll olunmamış silahlı münaqişələr, işğalçı siyasət, qeyri-humanist və nifrət təbliğatının yayılması, irqçilik, islamofobiya və ksenofobiyanın digər formaları xüsusi narahatçılığımıza səbəb olmalıdır.

Komitə sədri qeyd edib ki, dünyanın bir çox yerlərində davam edən silahlı münaqişələr, baş verən terror hücumları, eləcə də dünyanın müxtəlif yerlərində islamofobiya, dözümsüzlük, irqçilik və ksenofobiya kimi yüksələn trendlər beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına yönəlmiş hazırkı beynəlxalq mexanizmlərin yetərsizliyini nümayiş etdirir. Buna görə də, coğrafiyamızdakı münaqişələrin həllinə, terrorizmə qarşı mübarizədə qəti mövqeyə, bütün üzv dövlətlərin ərazi bütövlüyü və suverenliyinin qorunmasına yönələn birgə səylərimiz çox vacibdir.

Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini hələ də işğal altında saxladığını xatırladan M.Qurbanlı bildirib ki, təkcə 1989-1994-cü illər ərzində münaqişə dövründə Ermənistanın ölkəmizə qarşı təşkil etdiyi və bilavasitə mülki əhaliyə qarşı yönəlmiş terror kampaniyası nəticəsində minlərlə insan həlak olub və yaralanıb. Komitə sədri deyib: **"Heç şübhəsiz ki, bu terror kampaniyasının kulminasiyası, 1992-ci ilin 26 fevral tarixində Azərbaycanın Xocalı şəhərində baş vermiş soyqırımı cinayətidir. Bir gecədə erməni silahlı birləşmələri tərəfindən həyata keçirilmiş qırğın nəticəsində 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər mülki əhali qətlə yetirilib, 1,275 sakin girov götürülüb, 150 nəfərin taleyi isə naməlum qalmaqdadır".**

Toplantı qapalı iclaslarla işini davam etdirib. Sonda İstanbul Bəyannaməsi qəbul olunub.

# Mədəniyyət naziri UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru Mextild Rosslerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev Parisə səfəri çərçivəsində UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Mextild Rosslerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri səfir Anar Kərimov da iştirak edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının sədri qismində çıxış edən Əbülfəs Qarayev ölkəmizdə sözügedən mötəbər tədbirlə əlaqədar aparılan hazırlıq işləri ilə bağlı qarşı tərəfə ətraflı məlumat verib. İrs Komitəsinin Bakıda keçiriləcək 43-cü sessiyasının yüksək səviyyədə təşkil ediləcəyi ilə bağlı əminliyini bildirib.

İrs Mərkəzinin direktoru M.Rossler isə cari il martın 3-6-da Bakıya səfəri zamanı hazırlıq işlərinin uğurla aparıldığının şahidi olduğunu vurğulayıb. M.Rossler öz əməkdaşları ilə birgə İrs Komitəsinin sədri Əbülfəs Qarayevə 43-cü sessiya zamanı müzakirəsi nəzərdə tutulan mədəni və təbii irsin qorunması sahəsindəki məsələlər haqda ətraflı məlumat verib.

Ümumdünya İrs Mərkəzinin regional əlaqələndiricilərinin hər biri məsul olduqları regionlara dair məlumat veriblər. Mərkəzin direktoru M.Rossler qeyd edib ki, artıq ölkələr tərəfindən Dünya İrs Siyahısındakı abidələrə və təbii irs məkanlarına dair 166 hesabat komitədə müzakirə edilmək üçün daxil olub. Eyni zamanda, gündəlikdə 42 ölkədən Dünya İrs Siyahısına yeni namizəd fayllar durur. Görüşdə, həmçinin Komitə çərçivəsində büro və məşvərətçi iclaslar, Gənc Peşəkarlar Forumu və Abidə Menecerlərinin Forumunun formatı barədə də fikir mübadiləsi aparılıb.

Daha sonra tərəflər arasında sözügedən məsələlərlə bağlı fikir mübadiləsi aparılıb və Bakı sessiyasına hazırlıq çərçivəsində müzakirələrin davam etdirilməsinə dair razılıq əldə edilib.

Qeyd edək ki, UNESCO-nun ən mötəbər qurumlarından biri olan Ümumdünya İrs Komitəsinin iclasları zamanı Ümumdünya İrs Siyahısına yeni mədəni və təbii abidələrin daxil edilməsi, eləcə də artıq bu siyahıda yer alan abidələrin mühafizəsinin gücləndirilməsi məsələləri müzakirə edilir.

# Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır

***Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü Musa Quliyev www.yap.org.az saytına müsahibə verib:***



**- Musa müəllim, məlum olduğu kimi, ölkəmizdə davamlı olaraq islahatlar həyata keçirilir. Bu islahatların əhəmiyyəti nədən ibarətdir?**

- Məlumdur ki, Azərbaycanın inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev son 15 ildə ölkəmizdə islahatlar kursunu daha da dərinləşdirib. 2003-cü ildən bəri Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkənin inkişafının ardıcıllığını təmin etmək, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini gücləndirmək məqsədilə yeni nəsil iqtisadi islahatlar həyata keçirilir. Aparılan islahatlar indiki şəraitdə Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açan fundamental faktorlar qismində çıxış edir.

Bilirsiniz ki, hazırda Azərbaycan dünyada dinamik inkişaf edən və yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyata malikdir. Son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox artıb ki, bu da dünya üzrə rekord göstəricidir. Əlamətdar haldır ki, son illərdə milli iqtisadiyyatımızda neftdənkənar sektorun xüsusi çəkisi getdikcə artır. Hazırda ölkəmizdə ÜDM istehsalında qeyri-neft sektorunun xüsusi çəkisi 70 faizi ötüb.

Respublikamızda reallaşdırılan islahatların mühüm bir bloku institusional sferanı əhatə edir. 2019-cu ilin əvvəlindən ölkəmizdə struktur islahatları Prezident İlham Əliyevin siyasi iradəsi əsasında daha aktiv fazaya daxil olub. Dövlət başçısı tərəfindən 14 yanvar 2019-cu il tarixində və ondan sonrakı günlərdə struktur islahatları istiqamətində mühüm qərarlar qəbul edilib. Reallaşdırılan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Bu islahatlar artıq müsbət nəticələrini göstərməkdədir.

**- Son vaxtlar sosial sahədə də mühüm addımlar atılmaqdadır. Bu fakt Azərbaycanı sosial dövlət kimi necə səciyyələndirir?**

- Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bilirsiniz ki, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. 2019-cu ilin ilk iki ayında sosial sahədə atılan addımlar heç də təsadüfi, hər hansı impulsiv qərar deyil. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Son imzalanan sərəncamlar da bir və ya iki ayın işi deyil, onların üzərində aylardır ki, iş gedib.

Sərəncamlar imzalanmamışdan öncə onların maliyyə tutumluluğu, əhatə edəcəyi əhalinin sayı, inflyasiyaya dayanıqlığı hesablanıb. Bütün bunlar sadə məsələlər deyil, uzun illər görülən, hesablanan işlərin məntiqi nəticəsidir. Prezident İlham Əliyev də bəyan edib ki, 2019-cu il əhalinin sosial müdafiəsi sahəsində xüsusi bir il olacaq. Yəni 2017-ci il iqtisadiyyatımızın sabitləşməsi, 2018-ci il iqtisadi inkişaf, 2019-cu il isə sosial inkişaf və rifah ili kimi xalqımızın tarixinə düşəcək.

Azərbaycan Prezidentinin əhalinin sosial müdafiəsi istiqamətində atdığı addımlar xalqın lideri kimi xalqın qayğısına qalmasının əyani nümunəsi və ifadəsidir. Son zamanlar həm sosial müavinətlərin, pensiyaların, təqaüdlərin, minimum əməkhaqlarının artırılması və əhalinin rifahına təsir edən digər qərarların verilməsi də bu baxımdan böyük önəm kəsb edir. Bütün bunlar konkret olaraq dövlətin inkişafı, əhaliyə yönəlik siyasətin nümunəsidir.

Ölkə başçısı tərəfindən imzalanan sərəncamlar təxminən 3 milyona yaxın insanı əhatə edir. Bununla da, dövlət büdcəsinin üçdəbirindən çoxu sosial xərclərə yönəlmiş olur ki, bu da büdcəmizin sosialyönümlü olduğunun əlamətidir. Ölkə başçısının da söylədiyi kimi, bu sərəncamlar davamlı olacaq. Minimum, orta aylıq əməkhaqları, pensiyalar artacaq, yeni iş yerləri açılacaq, bütün bunlar əhalinin sosial rifah halının güclənməsinə, ölkəmizin sosial rifah dövlətinə çevrilməsinə gətirib çıxaracaq. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin mahiyyəti sosial müdafiə, sosial rifah və vətəndaşa yönəlik siyasət istiqamətində qurulub. Beləliklə, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

# Moskvada keçirilən konfransda Azərbaycandakı dövlət-din münasibətlərindən, multikultural mühitdən danışılıb



Rusiyanın paytaxtı Moskvada "Dinlərarası sülhü əldə etmək yolları: din xadimlərinin, diplomatların və ictimai xadimlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Dünyanın müxtəlif ölkələrindən olan din xadimlərinin, diplomatların və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri konfrans fərqli din və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi ətrafında fikir mübadiləsi aparmaq, eyni zamanda, bu sahədəki mövcud problemləri və perspektivləri müzakirə etmək məqsədilə təşkil olunub. Konfransda ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov və Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev təmsil ediblər.

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Səyavuş Heydərov Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit, Azərbaycan həqiqətləri, o cümlədən dinlərarası dialoqun əhəmiyyəti barədə danışıb. O bildirib ki, bu gün dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi bir dünyada və zamanda dinlərarası, həmçinin mədəniyyətlərarası dialoqun bərqərar olması vacibdir. Cəmiyyətdə, böyük miqyasda götürdükdə isə dünyada tolerantlıq prinsipləri bərpa olunmayana qədər dinlərarası dialoqdan danışmaq və bu istiqamətdə səy göstərmək əbəs yerə enerji sərf etməyə bənzəyir. Dinlərarası və mədəniyyətlərarası dialoqa nail olmaq, sülh və əmin-amanlıq üçün bütün beynəlxalq təşkilatların, nüfuzlu dini mərkəzlərin, ən əsası, ölkələrin səylərinin birləşdirilməsi zəruridir. Bu baxımdan, Azərbaycan üzərinə düşən mənəvi borcu və şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışır. Vicdan azadlığını insan hüquq və azadlıqlarının yalnız bir parçası kimi deyil, həm də tarixi dəyər kimi uca tutan Azərbaycan xalqı müxtəlif dini inanclı insanların birgəyaşayış ənənələrini zənginləşdirərək bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaradıb. Məhz bu səbəbdən, Azərbaycan tarixən sivilizasiyalararası dialoqa önəmli töhfələr verən, dözümsüzlüyün bütün formalarını rədd edən humanist məkan kimi öz mövqeyini qoruyub saxlaya bilib.

Ümummilli Lider Heydər Əliyevin siyasəti nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edildiyini, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normaları müstəvisində tənzimləndiyini, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması üçün hüquqi baza yaradıldığını deyən Səyavuş Heydərov Azərbaycanın dövlət-din münasibətləri modelinin hazırda Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da təkmilləşdirildiyini və bu modelin dünyada nümunə kimi qəbul olunduğunu vurğulayıb. O deyib ki, hazırda Azərbaycan dünyada beynəlxalq təhlükəsizliyə ciddi təhdid olan dini və etnik zəmində baş verən qarşıdurmaların qarşısının alınmasında öz əməli fəaliyyəti ilə hərəkətverici qüvvəyə çevrilib. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi, 10 ilini tamamladığımız "Bakı Prosesi" dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən qlobal xoşməramlı çağırışdır.

Konfrans iştirakçılarını Azərbaycan həqiqətləri barədə də məlumatlandıran sədr müavini qeyd edib ki, tarixi Azərbaycan torpaqlarının 20 faizindən çoxunun monokultural siyasət yürüdən Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan artıq azərbaycanlının öz torpaqlarından qovulmasına, minlərlə soydaşımızın terrora məruz qalmasına, Dağlıq Qarabağ ərazisində çoxsaylı dini, mədəni və tarixi abidələrimizin Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılmasına baxmayaraq, Bakının mərkəzində yerləşən erməni kilsəsi Azərbaycan dövləti tərəfindən mühafizə edilir. Təkcə bu faktların özü Azərbaycan dövləti və xalqının yüksək tolerant və multikultural mənəviyyatının bariz sübutudur.

Hacı Salman Musayev çıxışında konfransın çox aktual mövzuya həsr edildiyini və zamanın tələbi olduğunu bildirib. Vurğulayıb ki, qloballaşan dünyada dinlərarası sülhə ehtiyac duyulur. Müsəlmanların ekstremist kimi təqdim olunması cəhdləri dünyanın müxtəlif bölgələrində davam edir və İslamın mahiyyəti haqsızlıqla təhrif edilir. Yeni Zelandiyada törədilən terror aktı bunun bir nümunəsidir. Ekstremizmə, radikalizmə qarşı olan xarici düşmənçiliyin bütün təzahürlərini, xüsusən islamofobiyanı aradan qaldırmaq yalnız dövlətlərin, ictimai və siyasi xadimlərin, o cümlədən dini qurumların birgə səyləri ilə mümkündür. Din siyasətdən ayrı olsa da, qlobal reallığın ayrılmaz bir hissəsidir. Zamanın özü, baş verən proseslər bizdən birgə səylərimizi artırmağımızı tələb edir.

S.Musayev çıxışının sonunda diqqətə çatdırıb ki, Rusiya həmişə İslam dünyasına, müsəlman mədəniyyətinə xoş münasibəti ilə seçilib. Çoxmillətli və çoxkonfessiyalı bir dövlət olaraq Rusiya ənənəvi dinlərin normal varlığı və inkişafı üçün bütün lazımi şərait yaradır. Bugünkü konfrans da bu münasibətin məntiqi nəticəsidir.

Beynəlxalq konfrans işini panellərlə davam etdirib.

# ADPU-da "Elm günü"nə həsr edilmiş tədbir



Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-si Azərbaycanda "Elm günü" kimi qeyd olunur. Bu tarix ölkə üçün əlamətdar bir vaxta - AMEA-nın təsis olunduğu günə təsadüf etdiyi üçün xüsusi əhəmiyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, martın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) filologiya fakültəsinin təşəbbüsü və təşkilatçılığı ilə "Elm günü"nə həsr edilmiş tədbir və kitab sərgisi keçirilib.

Əvvəlcə tədbir iştirakçıları kitab sərgisi ilə tanış olublar. Sərgidə filologiya fakültəsinin professor və müəllimlərinin, digər elm və təhsil müəssisələri alimlərinin müxtəlif kitabları, monoqrafiyaları, dərslik və dərs vəsaitləri nümayiş etdirilib.

Filologiya fakültəsinin dekanı, professor Mahirə Hüseynova ölkəmizdə "Elm günü"nün geniş qeyd olunmasının əhəmiyyətindən danışıb və əlamətdar gün münasibətilə silsilə tədbirlərin keçirildiyini bildirib. Prezident İlham Əliyevin elmə, təhsilə xüsusi önəm verdiyini vurğulayan dekan qeyd edib ki, ölkəmizdə bu sahənin inkişafı üçün çox geniş imkanlar yaradılıb.

ADPU-nun inkişaf mərhələləri və fəaliyyətindən bəhs edən professor Mahirə Hüseynova universitet alimlərinin, məzunlarının elmə böyük töhfələr verdiyini diqqətə çatdırıb.

Sonra professor və müəllimlər, tələbələr kitabın, mütaliənin təbliği məqsədilə Qız qalasına doğru yürüş ediblər. Onlar yürüş zamanı şəhər sakinlərinə və əcnəbi qonaqlara kitablar bağışlayıblar.

# Hikmət Babaoğlu: Prezident İlham Əliyev tərəfindən əfv Sərəncamının imzalanması artıq ənənə halını alıb və belə sərəncamların hər biri yüzlərlə vətəndaşımızın ailələrinə sonsuz sevinc bəxş edib



**“Prezident İlham Əliyev tərəfindən əfv Sərəncamının imzalanması artıq ənənə halını alıb və belə sərəncamların hər biri yüzlərlə vətəndaşımızın ailələrinə sonsuz sevinc bəxş edib”.** Bu fikri yap.org.az saytına “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

Hikmət Babaoğlu bildirib ki, məhkum edilmiş şəxslərin əfv edilməsi hər şeydən əvvəl böyük humanizmdir: **“Buna paralel olaraq həm də Azərbaycanda həyata keçirilən davamlı hüquqi islahatlar cəza siyasətinin humanistləşdirilməsi üçün şərtlər formalaşdırır. Xüsusi təhlükəli hallar istisna olmaqla təcridetmədə cəzanın yüngülləşdirilməsi imkanları yaradır. Bu Sərəncamla 400-dən çox vətəndaşımız əfv edildi. Onların içərisində xarici ölkə vətəndaşları da var idi. Əfvetmə cəmiyyətimizdə, onun ictimai rəyində olduqca müsbət hadisə kimi qarşılandı və şübhəsiz ki, ümumi ictimai həmrəylik baxımından əlamətdar hadisəyə çevrildi”.**

Millət vəkilinin sözlərinə görə, əfv sərəncamları həm də bu məsələdə ümumiləşdirici və birləşdirici funksiya yerinə yetirməklə ümumi münasibətlər sistemində müsbət hal kimi assosiasiya olunur: **“Əlbəttə, bu faktor da vacibdir və pozitiv əhval-ruhiyyə yaratmaq baxımından əhəmiyyətlidir. Məsələnin ən mühüm tərəflərindən biri də əfvin Azərbaycan Prezidentinin siyasi iradəsi və xalqımızın humanist ənənələrinə söykənməsi əsaslarında baş tutmasıdır. Azərbaycan hakimiyyəti bunu müstəqil siyasi iradəsinə söykənərək edir və bu zaman hələ 1995-ci ildə qəbul edilmiş Konstitusiyamızın yaratdığı hüquqi fəlsəfəyə istinad edir. Ona görə də Azərbaycan cəmiyyətində vaxtaşırı əfv olacağı ilə bağlı bir gözlənti olur və bu da insanlarda həmişə ümid yaradır. Məhkum edilmiş şəxslər isə bu hadisəni öz səhvlərini bir daha təkrar etməmək üçün fürsət kimi görürlər. Beləliklə də, əfv hadisəsi hüquqi cəzadan da artıq tərbiyəedici vasitəyə çevrilir. Ancaq təəssüf ki, bu humanist addımı fərqli formada qiymətləndirənlər də tapılır. Azərbaycan Prezidentinin Sərəncamı ilə əfv edilənlərin siyahısında sabiq səhiyyə naziri Əli İnsanovun da adı vardı. Onun azadlığa buraxılması Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil və humanist qərarı olsa da, bu şəxs məlum qərarın guya beynəlxalq təşkilatların təzyiqi nəticəsində alındığını iddia etdi. Bu cür yanaşma əfv kimi humanist dəyərlərimizin dəyərsizləşdirilməsinə xidmət etməklə cəmiyyətdə belə qərarların antitəbliğatı vasitəsinə çevrilir. Əli İnsanovun müəyyən siyasi çağırışlar etməsi Azərbaycan cəmiyyətində heç bir reaksiya doğurmadı və doğura da bilməzdi”.**

Hikmət Babaoğlu qeyd edib ki, Azərbaycanda heç vaxt siyasi karyera regional təəssübkeşlik üzərində qurulmayıb. Onun fikrincə, buna cəhd etmək istəyənlər əvvəlcədən uğursuzluğa məhkumdurlar: **“Müasir Azərbaycan cəmiyyəti qarşılıqlı şəkildə o qədər dərin inteqrasiya olunub ki, onu region fərqinə görə bölmək qeyri-mümkündür. Siyasət həm də fərdlərin maraqlarının təmin olunduğu fəaliyyət sahəsi olduğu üçün hər bir ictimai fəal fərd özünün marağını mücərrəd ümumi regional maraq çərçivəsində təsəvvür edə bilmir. Siyasi baxımdan yetkin olan Azərbaycan cəmiyyəti də belədir. Ona görə də siyasətçi siyasətlə, digər peşə sahibləri də uyğun fəaliyyətlə məşğul olmalıdırlar. Azərbaycanda ötən əsrin 90-cı illərini siyasi reabilitasiya etmək cəhdləri milli maraqlarımıza ziddir və heç baş tutacaq məsələ də deyil”.**

# “Azərbaycanda həyata keçirilən islahatlar strateji xarakterlidir”

**“Azərbaycanda həyata keçirilən islahatlar strateji xarakterlidir və uzunmüddətli perspektivə hesablanıb. Ötən illər Azərbaycanın iqtisadi, mədəni, elmi və intellektual inkişafı ilə yadda qalıb”.** Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Millət vəkilinin sözlərinə görə, hazırda Azərbaycanın özünəməxsus iqtisadi modeli formalaşmaqla ölkəmiz keyfiyyətcə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub: **“Bu isə imkan yaradır ki, Azərbaycanda sosial sahədə islahatlar həyata keçirilsin, şəhid ailələri, sosial yardıma ehtiyacı olan təbəqəyə yenidən müavinətlər verilsin və bu sahədə dərin islahatlar aparılsın. Əslində, biz diqqət etsək, görəcəyik ki, 2014-cü ildən davam edən siyasət hüquqi islahatlar, konstitusion islahatlar, idarəetmədə islahatlar və nəhayət, sosial sahədə islahatlarla müşahidə edildi. Ardıcıllığa diqqət etsək, görəcəyik ki, bunlar bir-birini tamamlayan və əslində, bir-birini qidalandıran bütöv bir tamın mühüm komponentləridir. Çünki hüquqi islahatlar aparıb qanunvericiliyi dəyişmək olmasa, yeni iqtisadi münasibətlər yaratmaq mümkün deyil. Yeni iqtisadi münasibətlər yaranmasa isə, keyfiyyətcə iqtisadiyyatı yeni mərhələyə daşımaq mümkün deyil. İqtisadi dividendləriniz, gəlirləriniz arzuolunan səviyyədə olmasa, sosial islahatlar həyata keçirmək mümkün deyil.**

**Göründüyü kimi, bu siyasət ardıcıllıqla həyata keçirildi və bu gün öz bəhrəsini verməkdədir. Ona görə də əgər hazırkı mərhələdə bir daha Azərbaycan Prezidentinin ölkə xalqına Novruz bayramı təbrikində olan tezislərinə diqqət yetirsək, görəcəyik ki, islahatlar bundan sonrakı mərhələdə də davam etdiriləcəkdir. Çünki Azərbaycan cəmiyyəti dinamik cəmiyyətdir və onun iqtisadi sistemi də dinamikdir. Azərbaycanda daim müxtəlif yeni formalar tapılmaqla Azərbaycan cəmiyyətinin inkişafını təmin etmək üçün ciddi əsaslar var. Əlbəttə ki, bundan başqa, Azərbaycan dövləti tərəfindən qəbul edilmiş xüsusi proqramlar var ki, bunlar da bütövlükdə Azərbaycanın həm regionlarının inkişafı məsələsini həll edir, ölkəmizdə sənayenin, qeyri-neft sektorunun inkişafını təmin edir, həm də sosial fəallığın artırılması və əmək bazarına yeni qüvvələrin çıxarılması məsələsinə öz töhfəsini verir. Bunlar isə, heç şübhəsiz ki, bütövlükdə əmək məhsuldarlığını artırmaqla Azərbaycanı regionun ən böyük sənaye ölkəsinə çevirir. Çünki Azərbaycanda dinamik əhali artımı prosesi var.**

**Azərbaycan əhalisinin sayı 10 milyona yaxındır və buna uyğun olaraq da hər il əmək bazarına yeni əmək qüvvəsi çıxır ki, bu da mütləq ölkədə olan iqtisadi münasibətlərə, istehsal münasibətlərinə cəlb olunmalıdır ki, ölkənin iqtisadiyyatında inkişaf baş versin. Bax bu istiqamətdə də biz diqqət yetirsək, görəcəyik ki, həm peşə vərdişlərinin aşılanması və öyrənilməsi, həm təhsil sahəsində islahatların aparılması, həm uzunmüddətli perspektivdə müasir texnologiyalarla işləmək vərdişinin əldə olunması istiqamətində də işlər aparılır. Dolayısı ilə, biz bütün sahələrə nəzər salsaq, görəcəyik ki, Azərbaycanda həyata keçirilən islahatlar kompleks xarakter daşıyır və Azərbaycan Prezidentinin imzaladığı hər bir Sərəncam məhz ölkəmizin bu münasibətlərini bir addım daha irəliyə aparır”.**

# “Rəsmi Bakı Ermənistanı danışıqlar masasına qayıtmağa məcbur etdi”

**“ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müzakirələr aparmaq məqsədilə 29 mart tarixində Avstriyanın paytaxtı Vyana şəhərində görüşünün keçirilməsi barədə razılıq əldə olunub. Əslində, Azərbaycan tərəfi bu görüşlə Ermənistanı danışıqlar masasına qayıtmağa məcbur etmiş oldu. Çünki Paşinyan müxtəlif siyasi manipulyasiyalarla məsuliyyətdən yayınmağa, Ermənistanı bu günə qədərki həyata keçirdiyi işğalçılıq siyasətindən kənarda tutmağa çalışırdı və bu günə qədər artıq formalaşmış danışıqlar formatını dəyişməyə cəhd göstərirdi. Ancaq Azərbaycan buna yol vermədi”.** Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

**“Biz bilirik ki, ötən bir il müddətində Paşinyanın bu cəhdlərinə qarşı rəsmi Bakı həm diplomatik müstəvidə, həm hərbi, siyasi müstəvidə ciddi qərarlar həyata keçirməklə və ciddi addımlar atmaqla onun bu cəhdlərini tamamilə neytrallaşdırdı və danışıqlar masasına qayıtmağa məcbur etdi. Bunun bir istiqaməti, heç şübhəsiz ki, beynəlxalq təşkilatlarla iş oldu. Azərbaycan tərəfinin təzyiqindən sonra ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqlar formatının dəyişməz olduğunu bir daha bəyan etdilər. Bunun ardınca isə Avropa İttifaqının rəsmiləri eyni bəyanatı təkrar etdilər. Buna paralel olaraq Azərbaycan təmas xəttində hərbi güc nümayiş etdirməklə bir daha Azərbaycan Ordusunun nəyə qadir olduğunu işğalçı ölkəyə göstərdi. Danışıqlar olmazsa, onun yeganə alternativinin müharibə ola biləcəyi reallığını Ermənistana xatırlatdı”,** - deyə Hikmət Babaoğlu qeyd edib.

Deputatın sözlərinə görə, həyata keçirilən bu işlər, atılan addımlar, nümayiş etdirilən bu qətiyyət Paşinyanı məcbur etdi ki, Azərbaycan Prezidenti ilə görüşə razılıq versin: **“Burada qətiyyən formatın dəyişdirilməsindən söhbət gedə bilməz. Hətta onun dəyişdiriləcəyinə Ermənistanda ən optimist siyasətçi belə inanmır. Çünki Ermənistanın daxili auditoriyasında da, mətbuatında da bunun baş tutmayacağına əmindirlər. Əgər biz Ermənistanın informasiya resurslarını izləsək, görəcəyik ki, Paşinyanın danışıqlardan imtina edə biləcəyi Ermənistan cəmiyyətində, əslində, müharibənin başlaması xəbərdalığı kimi də qəbul olunurdu. Görünür, ermənilərin keçirdiyi son Təhlükəsizlik Şurasının iclasında da bu məsələlər geniş götür-qoy edildi və bir daha Azərbaycanın real gücü, real beynəlxalq nüfuzu nəzərə alındıqdan sonra Paşinyan bu cür danışıqlara razılıq vermiş oldu. Bu, bir növ, Azərbaycanın işğalçı Ermənistanı yenidən danışıqlar masasına qayıtmağa məcbur etməsi kimi qiymətləndirilməlidir. Əks təqdirdə, Azərbaycanın həm iqtisadi gücü, həm siyasi gücü, həm də beynəlxalq nüfuzu ona imkan verir ki, Azərbaycan digər vasitələrlə öz torpaqlarını azad etsin. Mən düşünürəm ki, bu reallığı Paşinyan qiymətləndirməlidir və nəhayət, 2019-cu ildə gözlədiyimiz substantiv danışıqlar başlamalıdır”.**

# Azərbaycan Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesini pozmaq cəhdlərinə imkan vermədi

*Rəsmi Bakının hərbi, siyasi və diplomatik cəbhədə atdığı addımlar Ermənistanı yenidən danışıqlar masasına qayıtmağa məcbur etmiş oldu*



Milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursuna malik olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və praqmatik xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətləri, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Hazırda regional güc mərkəzi olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb.

Şübhəsiz ki, Azərbaycanın xarici siyasət kursunun ən mühüm strateji prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Ölkəmiz bu istiqamətdə qətiyyətli mövqe nümayiş etdirir. Bu mövqe ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. O da həqiqətdir ki, Azərbaycanın həyata keçirdiyi milli maraqlara əsaslanan siyasət və hücum diplomatiyası bölgədə yeni reallığın yaranmasına səbəb olub. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin formalaşdırıb. Digər tərəfdən, Azərbaycanın qətiyyətli mövqeyinin fonunda beynəlxalq müstəvidə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyi bəyan edilir. Yəni münaqişənin həlli ilə bağlı Azərbaycanın ədalətli və haqlı mövqeyi dəstəklənir, bu mövqe ardıcıl olaraq daha da güclənir. Son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər də Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin əyani ifadəsidir.

Bütün bunlara baxmayaraq, Ermənistanın qeyri-konstruktiv mövqe ilə danışıqlar prosesini pozmağa hesablanmış addımlar atması heç kəsə sirr deyil. Bu ölkə tərəfindən zaman-zaman danışıqların formatının dəyişdirilməsi ilə bağlı absurd iddiaların ortaya atılması məhz bu məqsədə xidmət edir. Ermənistanın yeni rəhbərliyi indiyə qədər müxtəlif formalarda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ziddiyyətli bəyanatlar səsləndirib, bu məsələ ilə əlaqədar beynəlxalq qanunvericiliyin tələblərinə uyğun olmayan çıxışlar edib. Xüsusi vurğulamaq gərəkdir ki, Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri və Avropa İttifaqı rəsmiləri ilə son görüşlərdə bu məsələ ilə bağlı ciddi narahatlığını ifadə etdi. Bundan dərhal sonra həmsədrlər bəyanatla çıxış etdilər. ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatında bildirildi ki, danışıqların formatı dəyişdirilə bilməz və danışıqlar Helsinki Yekun aktında nəzərdə tutulan prinsiplərə söykənir. Yəni xalqların öz müqəddəratını təyinetmə hüququ dövlətlərin ərazi bütövlüyünü təhdid edə bilməz. Əlbəttə, ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatı Paşinyanın populist siyasətinin iflasa uğradığını göstərdi. Bir daha bəlli oldu ki, münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır, danışıqların formatının dəyişdirilməsinə dair səsləndirilən absurd iddialar qəbuledilməzdir.

Yeri gəlmişkən, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müzakirələr aparmaq məqsədilə martın 29-da Avstriyanın paytaxtı Vyana şəhərində görüşünün keçirilməsi barədə razılıq əldə olunub. Bu isə həm də ona dəlalət edir ki, Azərbaycan Ermənistanı danışıqlar masasına qayıtmağa məcbur etmiş oldu. Başqa sözlə, Ermənistanın məsuliyyətdən yayınmaq və danışıqlar prosesini pozmaq cəhdləri baş tutmadı.

Ümumiyyətlə, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı substantiv danışıqların aparılmasında israrlıdır. Bu gün Ermənistan da yaxşı bilir ki, Azərbaycan işğalçı ölkənin status-kvonu legitimləşdirmək cəhdlərinə heç vaxt imkan verməyəcək. Hər şeydən əvvəl, ölkəmiz öz iqtisadi və hərbi qüdrətinə, yüksək beynəlxalq nüfuzuna güvənir. Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək qüdrətindədir. Bütövlükdə isə, rəsmi Bakının hərbi, siyasi və diplomatik cəbhədə atdığı addımlar Ermənistanı yenidən danışıqlar masasına qayıtmağa məcbur etdi.

**Nurlan QƏLƏNDƏRLİ**

# Vergi qanunvericiliyindəki son dəyişikliklərin turizm sahəsində tətbiqi ilə bağlı tədbir keçirilib

Martın 27-də Dövlət Turizm Agentliyinin və Vergilər Nazirliyinin təşkilatçılığı ilə turizm sənayesinin iştirakçıları üçün vergi qanunvericiliyində edilmiş dəyişikliklərlə bağlı “Vergi Məcəlləsinə 2019-cu ildə edilən əlavə və dəyişikliklər: yeni qaydaları (e-qaimə) turizm sənayesində necə tətbiq etməli?” mövzusunda məlumatlandırıcı xarakterli tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Vergilər Məcəlləsi ilə bağlı yeni qaydalar izah edilərək hotellər, səyahət agentlikləri və tur operatorların vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı suallar cavablandırılıb, rəy və təkliflər dinlənilib. Həmçinin tədbirdə e-qaimənin turizm sektorunda tətbiqi ilə bağlı mövzuya xüsusi diqqət ayrılıb.

Dövlət Turizm Agentliyinin aparat rəhbəri Kənan Qasımov bildirib ki, təmsil etdiyi qurum hər zaman turizm sahəsində fəaliyyət göstərən şirkətlərin və digər sənaye üzvlərinin daha çox təşkilatlanmasını dəstəkləyir. Bu baxımdan ötən il yaradılmış Azərbaycan Hotel Assosiasiyasını və yaxın günlərdə yaradılacaq Bələdçilər Assosiasiyasını nümunə göstərmək olar.

Aparat rəhbəri qeyd edib ki, dövlət qurumu olaraq Dövlət Turizm Agentliyi ictimai təşkilatların fəaliyyətinə birbaşa müdaxilə etməsə də, hər bir qurumun formalaşması və işinin düzgün təşkilinə dəstək göstərməyə hazırdır. **“Bu sahədə əsas məqam həmin qurumların təmsil etdikləri tərəflərin problemlərini və təkliflərini Agentliyə çatdırması və bu məsələlərin həlli ilə bağlı birgə əməkdaşlığın qurulmasıdır”,** - deyə Kənan Qasımov vurğulayıb.

Dövlət Turizm Agentliyinin şöbə müdiri Məhəmməd Muradov və Vergilər Nazirliyinin vergi siyasəti departamentinin baş direktor müavini Nicat İmanov çıxış edərək mövzu ilə bağlı münasibətlərini bildiriblər.

Qeyd edilib ki, Vergi Məcəlləsində son dəyişikliklərdən sonra e-qaimənin turizm şirkətləri tərəfindən təqdim edilməsi ilə bağlı yaranmış problemin həlli istiqamətində aparılan müzakirələrin nəticəsində məsələ müsbət həllini tapıb. Belə ki, artıq turizm agentliyi biletlərin və xidmətlərin satışını birbaşa deyil, agent qaydasında vasitəçi olaraq həyata keçirdiyi təqdirdə bu barədə hüquqi şəxslərə və dövlət orqanlarına təqdim etdiyi elektron qaimə-fakturanın “Əlavə qeyd” sətrində müvafiq qeyd apararaq elektron qaimə verə bilərlər. Bundan başqa, verilmiş elektron qaimə-faktura agentin vergitutulan dövriyyəsi hesab edilmir və agent xidmətlərin həyata keçirilməsinə görə ona çatası haqdan vergiləri hesablayıb dövlət büdcəsinə ödəyir.

# Amerikalı jurnalist ölkəmizdə aparılan vergi islahatları barədə məlumatlandırılıb




Amerikalı tanınmış jurnalist Con Batçelor 2018-ci ilin sonlarında Azərbaycanda həyata keçirilmiş vergi islahatları barədə məlumatlandırılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Cabbarov ilə müsahibəsi zamanı amerikalı jurnalistin diqqətinə çatdırılıb ki, bu islahatları həyata keçirməkdə məqsəd kiçik və orta biznesin üzərindən vergi yükünün qaldırılması yolu ilə qeyri-neft sektorunun inkişafını təmin etməkdir.

Müsahibədə Azərbaycanda kənd təsərrüfatı sektorunun ümumiyyətlə vergidən azad edildiyi vurğulanıb, bunun adıçəkilən sektorun inkişafını təmin etməklə bərabər, ölkənin kənd təsərrüfatı məhsullarının xarici ölkə bazarlarında satışı zamanı rəqabətliliyinin artmasına səbəb olduğu bildirilib. Qeyd olunub ki, vergi siyasəti iqtisadi inkişafı təmin etdiyi kimi, ölkənin iqtisadi inkişaf səviyyəsi də vergi siyasətinə önəmli təsir göstərir. Bu baxımdan Azərbaycan Respublikası Vergilər Nazirliyinin ölkəmizin İqtisadiyyat və Maliyyə nazirlikləri ilə yaxından işlədiyi diqqətə çatdırılıb.

Həmçinin bildirilib ki, ölkəmizdə inkişaf yalnız paytaxtda deyil, regionlarda da baş verir. Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq regionların sosial infrastruktur layihələrinə 10 milyardlarla manat sərmayə yatırılıb, üç mindən çox məktəb, altı yüzdən çox xəstəxana tikilib və on minlərlə kilometr uzunluğunda yollar çəkilib.

Sonda qeyd olunub ki, Azərbaycanda əlverişli biznes mühiti yaradılıb və bu fakt Dünya Bankının “Doing Business 2019” hesabatında da öz əksini tapıb.

# Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təmizlik vəziyyəti ilə bağlı müşavirə keçirilib



Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın və rayonların təsərrüfat və digər xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə şəhərin və onun rayonlarının sanitar təmizlik vəziyyətinə həsr olunmuş xüsusi müşavirə keçirilib.

Bu barədə AZƏRTAC-a Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib.

Müşavirədə qeyd olunub ki, bu günlərdə şəhərin müxtəlif rayon və qəsəbələrinin sanitar təmizlik vəziyyətinin yoxlanılması ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən xüsusi komissiya yaradılıb. Komissiyanın keçirdiyi reydlər nəticəsində ümumi vəziyyətin qənaətbəxş olduğu qeyd edilib, lakin bəzi ərazilərdə, xüsusilə də bir sıra qəsəbələrdə narahatçılıq doğuran problemlərin, o cümlədən kortəbii zibilliklərin mövcud olduğu bildirilib. Müşavirə zamanı mövcud nöqsanları əks etdirən foto materiallar nümayiş etdirilib, çatışmazlıqlar müzakirə olunaraq onların aradan qaldırılması üçün əlaqədar təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib və məsələ ciddi nəzarətə götürülüb.

Cavabdeh ərazilərin sanitar-təmizliyinin qənaətbəxş olmadığı üçün, Yasamal Rayon MKTB-nin rəisi Rüfət Əhmədova ciddi xəbərdarlıq edilib, Suraxanı Rayon İcra Hakimiyyəti başçısının Zığ qəsəbəsi üzrə nümayəndəsi Səfa İmanova töhmət verilib, onun vəzifədə qalıb-qalmaması məsələsinə baxılması Suraxanı Rayon İcra Hakimiyyətinə tövsiyə olunub. Eyni zamanda, Bakı Şəhər və Qaradağ Rayon İcra Hakimiyyətlərinin birgə yoxlamalarının nəticəsi olaraq işdə yol verdiyi nöqsanlara görə Qaradağ MKTB-nin rəisi Rasim Əhmədov tutduğu vəzifədən azad edilib. Müşavirədə bir sıra digər vəzifəli şəxslərə xəbərdarlıq edilərək, nöqsanların tam aradan qaldırılması üçün 1 ay vaxt verilib.

Müşavirədə, həmçinin qeyd olunub ki, Bakı Şəhər İcra Hakimiyyətinin sifarişinə əsasən Böyük Britaniyanın tanınmış "Mott MacDonald" şirkəti tərəfindən Bakı şəhərində məişət tullantılarının daşınması və idarə olunması konsepsiyası hazırlanır. Bu sahədə böyük təcrübəsi olan Böyük Britaniya şirkətinin rəhbərliyinin bildirdiyinə görə Bakı mürəkkəb landşafta, küləkli hava şəraitinə və böyük əraziyə malik olmasına baxmayaraq, şəhərin sanitar təmizliyi əsasən qənaətbəxş səviyyədədir. Lakin bu vəziyyət Bakı Şəhər İcra Hakimiyyətini tam qane etmədiyindən bu sahəyə diqqət və nəzarətin daha da artırılacağı bildirilib.

Qeyd olunub ki, Bakı şəhərində məişət tullantıları üçün yeni konteynerlərin qoyulması davam edir, paytaxtda tullantıların daşınması və idarə olunması ilə bağlı islahatların həyata keçirilməsinin ilkin mərhələsi avqust-sentyabr aylarında başa çatacaq.

Müşavirədə Bakı şəhərində təmizlik aylığının keçirilməsi elan olunub.

# Əlahiddə Ümumqoşun Orduda keçirilən növbəti təlim-toplantı başa çatıb



Naxçıvan Qarnizonunda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin peşəkarlıqlarının artırılması məqsədilə keçirilən növbəti təlim-toplantı başa çatıb.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, toplantı zamanı hərbi rəhbərlərin sıra hazırlığı yoxlanılıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçilən nəzəri dərslərdən sonra hərbi-vətənpərvərlik mövzusunda film və video-çarxlar nümayiş etdirilib.

Təlim-toplantısında müxtəlif təyinatlı silahların natamam sökülüb yığılması, kütləvi qırğın silahlarından mühafizə vasitələri və onlardan istifadə qaydaları əyani şəkildə göstərilərək normativlər qəbul olunub. Yaralılara ilkin tibbi yardım edilərək onların döyüş meydanından təxliyəsi üzrə dərslər keçilib.

Təlim-Tədris Mərkəzində keçirilən yekun tədbirdə təlim-toplantının nəticələri, hərbi rəhbərlərin bilik və bacarıq səviyyələri müzakirə edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini Cavid Məmmədov və Əlahiddə Ümumqoşun Ordu komandanın müavini, general-mayor Teymur Eyyubov təlim toplantıların böyük əhəmiyyət daşıdığını bildirib, hərbi rəhbərlərin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını vurğulayıblar.

Sonda hərbi rəhbərləri maraqlandıran suallar cavablandırılıb.

# Nikol Paşinyan işğalçı ölkədə proseslərə nəzarət edə bilmir

*Yaxud Ermənistan cəmiyyətindəki daxili qarşıdurma işğalçı orduya da sirayət edib*



Təxminən bir il öncə hakimiyyəti ələ keçirən Nikol Paşinyan ötən müddət ərzində Ermənistan üçün müsbət bir iş görə bilməyib. Əksinə onun və rəhbərlik etdiyi hökumətin yarıtmaz siyasəti nəticəsində heç bir sahədə irəliləyiş əldə olunmaması Ermənistanda daxili vəziyyəti daha da gərginləşdirib. Əksər ekspertlərin vurğuladıqları kimi, xalqa boş vədlər verməkdən başqa bir iş görməyən N.Paşinyanın struktur islahatı aparmaq adı ilə hökuməti tam formalaşdırıb başa çatdırmaması da işğalçı ölkədə siyasi xaosa yol açıb. Bu və ya digər səbəblərdən yaranan kritik vəziyyət isə Ermənistanda özbaşınalıqların, etiraz aksiyalarının daha da artmasına gətirib çıxarıb.

Hətta iş o yerə çatıb ki, indiki hakimiyyətin "Mənim addımım" blokunun əksəriyyət təşkil etdiyi parlamentdə hökumətin ayrı-ayrı üzvləri və bütövlükdə N.Paşinyanın kabineti haqqında ciddi tənqidlər səslənməkdədir. Belə ki, bu günlərdə Ermənistan parlamentində hökumətin fəaliyyətinin müzakirəsi zamanı formal olaraq müxalifət hesab olunan "Çiçəklənən Ermənistan" Partiyasının deputatlarından Gevork Petrosyan hökumətin parlamenti idarə etdiyi barədə ittiham irəli sürüb. Böyük qalmaqal yaradan bu çıxışa səbəb isə partiyanın təqdim etdiyi Ermənistan Əmək Məcəlləsinə düzəlişlər layihəsinə hökumətin mənfi rəy verməsi olub.

Bu arada işğalçı ölkədə mövcud, hökumətə qarşı etiraz aksiyaları səngimək bilmir. Növbəti etiraz aksiyası isə təkcə hökumətin fəaliyyətsizliyini deyil, ordudakı acınacaqlı vəziyyəti üzə çıxarıb. Meğri rayonunda yerləşən bir hərbi hissədə baş vermiş iğtişaşlardan sonra hökumət binasının qarşısında aksiya keçirən hərbçilərin yaxınları Ermənistan Müdafiə Nazirliyinin atdığı addıma etiraz ediblər. Əsgər anaları bildiriblər ki, Ermənistan Müdafiə Nazirliyinin qərarı ilə hərbi hissədə baş verən iğtişaşlarda iştirak edən əsgərlərin bir qismini xidmət yerlərini Dağlıq Qarabağa köçürməklə cəzalandırıblar.

Daha sonra Ermənistan Müdafiə Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirən əsgər analarının sözlərinə görə, hadisənin günahkarı zabitlərdən biri olsa da, 20 nəfərə yaxın əsgər və zabit cəzalandırılıb. "YerevanToday"in yazdığına görə, özbaşına alayı tərk edən yüzlərlə əsgərdən 20 nəfər seçilib, hərbi formaları cırılıb, telefonları əllərindən alınıb və avtobusla Qafan hərbi polisinə aparılıb. Üsyanda iştirak edən əsgərlərin bir çoxu isə Xankəndiyə göndərilib. Əsgər analarının sözlərinə görə, onlar baş verən hadisədən övladlarının Dağlıq Qarabağdan zəng etmələrindən sonra xəbər tutublar.

Hərbi qulluqçuların yaxınlarının tələblərinə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Hovhannisyan da etinasız yanaşıb və cəzanın bu növünü normal hesab edib. Onun sözlərinə görə, kütləvi iğtişaşlarda iştirak edən əsgər və zabitlərin bir hissəsi ermənisayağı cəzalandırılsa da (Qarabağa göndərilməklə), on doqquz əsgər istintaqa cəlb olunub.

Baş vermiş bu hadisə isə təkcə əsgərlərin valideynlərini deyil, bütün əhalini ayağa qaldırıb. "Jurnalistlər sülh naminə" ictimai təşkilatının rəhbəri, hüquq müdafiəçisi Janna Aleksanyan mətbuat katibi A.Hovhannisyanın fikirlərinə etiraz edərək onu bütün günahı əsgərlərin üzərinə atmaqda, səbəblər barədə danışmamaqda günahlandırıb. Onun sözlərinə görə, hadisənin səbəbkarı Qasparyan soyadlı zabit əsgərləri alçaltmağa çalışıb, buna görə də, əlbəttə ki, bir gün bir iğtişaş olacaqdı. Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri, hüquq müdafiəçisi Artur Sakuntsun sözlərinə görə, əsgərlərin digər hərbi hissələrə paylanması baş verən hadisənin əsas səbəbini gizlətmək məqsədi daşıyır, vətəndaş cəmiyyəti və hüquq müdafiəçilərindən ibarət komissiya yaratmaq lazımdır.

Sonda onu da qeyd edək ki, son iki həftə ərzində Ermənistanın hərbi hissələrində, xüsusilə işğal edilmiş Azərbaycan ərazilərində yerləşən hərbi birləşmələrdə naməlum səbəbdən baş verən əsgər ölümləri cəmiyyətdə narazılıq və təşviş yaradıb. Bütün bunlar isə bir daha sübut edir ki, N.Paşinyanın rəhbərlik etdiyi hökumət nəinki ölkənin sosial-iqtisadi vəziyyətinə nəzarət edə bilir, heç işğalçı ordunun idarə olunması iqtidarında da deyil.

**Qaşqay ZİYƏDDİNOĞLU**

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionların elektrik enerjisi ilə təminatı daha da yaxşılaşdırılır

*Bu istiqamətdə davamlı olaraq tədbirlər həyata keçirilir*









Məlum olduğu kimi, Azərbaycanda həyata keçirilən uğurlu siyasət bütün sahələrin tərəqqisinə səbəb olub. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Məhz bu proqramlar çərçivəsində ötən 15 il ərzində regionlarda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb.

Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi istiqamətində görülən işlər elektrik enerjisi sahəsində də mühüm uğurların əldə edilməsinə səbəb olub. Ölkəmizdə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində atılan addımlar, eləcə də bu sahə üzrə müasir infrastruktur quruculuğu siyasəti uğurla davam etdirilir. Qeyd edilməlidir ki, son 15 ildə istifadəyə verilən generasiya obyektləri respublikamızda sözügedən sahədə reallaşdırılan infrastruktur quruculuğunun bariz nümunəsidir. Əgər 2004-cü ilə qədər Azərbaycanda 3900 meqavat gücündə cəmi 9 elektrik stansiyası mövcud idisə, son 15 ildə respublikamız 30-dan çox yeni elektrik stansiyası tikməyə və özünün generasiya güclərini daha 2500 meqavat artırmağa nail olub. Hazırda Azərbaycan həm elektrik enerjisinə olan daxili tələbatını tam olaraq yerli istehsal hesabına ödəyir, həm də müəyyən həcmlərdə ixrac imkanlarımız yaranıb.

Ümumiyyətlə, ölkəmizin bütün rayon mərkəzlərində, qəsəbə və kəndlərində yararsız, istismar müddəti başa çatmış köhnə transformatorlar yeni tip, qapalı komplekt transformator məntəqələri (KTM) ilə əvəz olunur. "Azərişıq" ASC qısa müddət ərzində 4500-ə yaxın bu cür yeni tipli KTM quraşdıraraq istifadəyə verib. Səhmdar Cəmiyyət respublikamızın bütün şəhər və rayonlarında, kənd və qəsəbələrində, hətta ən keçilməz dağ silsilələrində, ən ucqar yaşayış məskənlərində belə, genişmiqyaslı işlər görməkdədir.

Eyni zamanda, cəbhə bölgəsində yerləşən rayonlara da xüsusi diqqət göstərilir. Düşmənlə təmas xəttində yerləşən Tərtər, Ağdam və Füzuli rayonlarında köhnəlmiş, istismara yararsız elektrik dayaqları dəyişdirilir, naqillər, transformatorlar yeniləri ilə əvəz edilir və müasir tipli yarımstansiyalar quraşdırılır. Bu bölgələrin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təminatı daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 24 yanvar 2017-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar müvafiq infrastrukturun yaradılması, o cümlədən ərazidə elektrik təsərrüfatının bərpa edilməsi istiqamətində "Azərişıq" ASC tərəfindən genişmiqyaslı işlər aparılıb. Səhmdar Cəmiyyət tərəfindən Cocuq Mərcanlı kəndi ərazisində müasir standartlara cavab verən 35/10 kV-luq yeni yarımstansiya inşa edilib.

Bütün bunlarla yanaşı, ötən illər ərzində bir milyona yaxın elektron-rəqəmsal sayğaclar istismara verilərək uçot komplekti ilə təchiz edilib. İlk dəfə olaraq, insan faktoru təsirinin minimallaşdırılması məqsədilə, məsafədən oxunma cihazları olan "Alfa metronika RTU" alış nöqtələrində quraşdırılıb və xüsusi proqram təminatı mərkəzi idarəetmə bazasına inteqrasiya edilib. Hazırda "Elster" tipli sayğaclar, quraşdırılma və istismar yerindən asılı olaraq: saatlıq, sutkalıq, həftəlik və aylıq (cari ay və ya 4 həftə müddəti götürülür) sərfiyyat göstəricilərini virtual yaddaş blokunda toplayır, avtomatik olaraq mərkəzə ötürür (əvvəlcədən qurulmuş virtual ssenari üzrə), eyni zamanda, istənilən müdaxilə və ya istismar şərtlərini pozan şərait yarandığı hallarda sayğac mərkəzə müvafiq xəbərdarlıq (alarm-tipli) məlumatlarını da çatdırır. Generasiya olunan informasiyalar şifrələnir, mərkəzə çatdırıldıqda isə deşifrə olunaraq xüsusi cədvəllər şəklində monitorda əks etdirilir. Bu günədək 500-dən çox bu tip sayğac quraşdırılıb və uğurla istismar olunur. 2011-ci ildən tətbiqinə start verilmiş SMS Smart sayğacların istismarını tam şəkildə həyata keçirmək məqsədilə, müəssisənin intellektual texnologiyalar mütəxəssisləri tərəfindən xüsusi SİMS proqram təminatı işlənib hazırlanıb. Bu proqram vasitəsilə SMS Smart sayğacların oxunması, balans artırılması, alarm - xəbərdarlıq mesajlarının alınması, məsafədən tarif cədvəlinin qurulması, abonentin ödənişləri/sərfiyyatı (gündəlik, həftəlik, aylıq, yarım illik və illik) haqda tam məlumatların alınması/verilməsi, abonentin mobil telefonuna faydalı məlumatların ötürülməsi təmin edilir. SMS Smart tipli sayğaclar GSM - mobil rabitə kanalı vasitəsilə, şifrələnmiş informasiya mübadiləsi rejimində fəaliyyət göstərir və funksional imkanları tətbiq şəraitinə uyğun qabaqcadan proqramlaşdırılır. 2011-2018-ci illər ərzində 100 mindən artıq SMS Smart sayğac paytaxt rayonlarında və ölkəmizin müxtəlif regionlarında quraşdırılaraq istifadəyə verilib.

Əhali və qeyri-əhali istehlakçı qrupuna aid sifarişçilərin enerji təchizatı şəbəkəsinə qoşulması və sayğacların quraşdırılması "Azərişıq" ASC-nin yeni elektron xəritə sistemi vasitəsi ilə həyata keçirilir. "ASAN xidmət" mərkəzlərinin birgə fəaliyyəti ilə vətəndaşlara göstərilən xidmətdə mütəmadi yeniliklər edilir. Belə yeniliklərdən biri də səyyar "ASAN Kommunal Xidmət" vasitəsidir. Evinə, bağına və ya tikinti obyektinə işıq çəkdirmək istəyən vətəndaş səyyar "ASAN Kommunal Xidmət"ə sənədlərini təqdim edir. Qeyd olunan obyekt elektron xəritənin məlumat bazasında müəyyən edilir və şəbəkəyə qoşulması üçün məsafə, lazım olan mal-material, işin həcmi və görüləcək işlərin dəyəri müəyyənləşdirilir.

Yeri gəlmişkən onu da qeyd edək ki, "Azərenerji" ASC "Reabilitasiya Proqramı"na uyğun olaraq ölkə elektrik enerjisi sistemi üzrə "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə apardığı işləri davam etdirir. Qoyuluş gücü 780 MVt olan "Cənub" Elektrik Stansiyası sentyabr ayında təhvil alınan zaman stansiyanın yükü 520 MVt olduğu halda, görülən işlər nəticəsində güc 720 MVt-a qaldırılıb və 200 MVt itirilmiş güc bərpa edilib. Lakin "Azərenerji" ASC stansiya üzrə əldə edilən bu nəticə ilə kifayətlənmək fikrində deyil və əlavə tədbirlərini davam etdirir. "Reabilitasiya Proqramı"na uyğun olaraq hazırda Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasına 25 km məsafədə 530 diametrli yeni qaz xətti çəkilir. Buna səbəb isə əvvəl kənardan alınan qazın keyfiyyətinin aşağı olması ilə yanaşı, istehsal prosesində bəzi problemlərin yaranması idi. Belə ki, hazırda "Cənub" ES-də hər birinin gücü 5 MVt olmaqla 2 ədəd qaz kompressoru işləyir, onlar qazın təzyiqini 6 atmosferdən 25 atmosferə qədər qaldırmalı olur. Bu da orta hesabla ay ərzində 7 milyon kVts elektrik enerjisi sərfinə gətirib çıxarır. Yeni xətt çəkiləndən sonra qaz birbaşa turbinə daxil olacaq və həmin kompressorların işləməsinə ehtiyac qalmayacaq. Bununla da həm istehsal prosesində sərf edilən aylıq 7 milyon kVts elektrik enerjisinə qənaət ediləcək, həm də həmin 7 milyon kVts elektrik enerji yükü ümumi sistemə ötürüləcək. Ən əsası isə, bununla "Cənub" Elektrik Stansiyasının etibarlılığı və dayanıqlığı artırılmaqla yanaşı, itirilmiş gücün bərpası istiqamətində daha bir addım atılmış olacaq.

"Reabilitasiya Proqramı" çərçivəsində aparılan işlərin sırasına modul tipli elektrik stansiyaları da daxil edilib və "Səngəçal", "Xaçmaz", "Şahdağ", "Bakı", "Astara" və "Şəki" modul tipli elektrik stansiyalarında mühərriklərin təmir-bərpa işlərinə start verilib.

Təmir-bərpa işlərinin aparılması üçün "Wartsila" şirkəti ilə bağlanan müqaviləyə əsasən ilk partiya avadanlıq və ehtiyat hissələri stansiyalara gətirilib və quraşdırılmaqdadır. Növbəti partiya avadanlıq və ehtiyat hissələrinin aprel ayına qədər gətirilməsi və ilin sonuna qədər işlərin yekunlaşdırılması planlaşdırılıb.

Qeyd edək ki, təmirə qədər mühərriklər aşağı güclə və fasilələrlə işləyirdisə, təmirdən sonra qoyuluş gücünə yaxın və daha dayanıqlı işləyəcək. Başqa sözlə, "Səngəçal" ES-də mühərriklərin hər biri təmirə qədər 14 MVt güclə işlədiyi halda, təmirdən sonra 16 MVt-a çatdırılması nəzərdə tutulub. "Xaçmaz", "Şahdağ", "Bakı", "Astara" və "Şəki" ES-lərdə isə mühərriklərin hər birinin gücü orta hesabla 5,5 MVt-dan 8,1 MVt-a çatdırılacaq. Nəticədə 200 MVt-dan artıq itirilmiş güc bərpa olunacaq.

"Reabilitasiya Proqramı" çərçivəsində "Mingəçevir" Elektrik Stansiyasında (ES) da təmir-bərpa işləri həyata keçirilir. Stansiyada gərginliyi 220/110 kilovolt, (kV) gücü 200 meqavolt amper (MVA) olan avtotransformator, onun 220/110 kV-luq hücrələri, açarlarıı, ayrıcları qurlaşdırılıb. Kür çayının üstü ilə keçməklə 780 metr məsafədə yüksəkgərginlikli 110 kV-luq elektrik xətti çəkilib və avtotransformatora qoşulub. Eyni zamanda, avtotransformator yeni müasir tipli rele mühafizəsi və avtomatikası sistemi ilə təmin edilib. Qeyd edək ki, 4 ildən artıq idi ki, 220/110 kV hissəsinə əlavə avtotransformator qoşulmadığından birinci avtotransformator fasiləsiz işləyir, qəza riskini artırır və onun üzərində əsaslı təmir-bərpa işləri aparmaq olmurdu. İndi isə yükü digər avtotransformatorun üstünə keçirməklə istənilən təmir işini həyata keçirmək və fasiləsizliyi təmin etmək mümkündür. Əlavə avtotransformatorun qoşulması ilə dayanıqlıq və etibarlılıq təmin olunmaqla yanaşı, gərginlik də 2 kV artıb. Eyni zamanda, əlavə avtotransformatorun qoşulması Mingəçevir və ətraf regionlarda elektrik enerjisinin keyfiyyətliliyinə də müsbət təsir göstərib.

Onu da bildirək ki, "Azərenerji" ASC fevral ayı ərzində 1.945 milyard kVts elektrik enerjisi istehsal edib. Bu isə ötən ilin fevral ayı ilə müqayisədə 24,2 milyon kVts çoxdur. Belə ki, ötən ilin fevral ayında 1,921 milyard kVts elektrik enerjisi istehsal edilmişdi. Bu ilin fevral ayında istehsal edilən 1,945 milyard kVts elektrik enerjisindən 159,34 milyon kVts qonşu ölkələrə ixrac olunub.

**Nardar BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır
KİVDF
www.kivdf.gov.az

# Turizmin inkişafı istiqamətində atılan addımlar davamlı xarakter daşıyır

*Bundan əvvəlki aylarda olduğu kimi martda da ölkəmizə gələn xarici turistlərin sayında artım müşahidə edilib*






Ölkəmizdə digər sahələr kimi turizmin inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. İstər bu tədbirlərin reallaşdırılması, istərsə də qurulan yeni infrastruktur, bölgələrdə tikilən iaşə obyektləri, yaradılan yüksək xidmət öz növbəsində yerli turistlərlə yanaşı, xarici turistlərin də regionlarımıza daha çox maraq göstərməsinə səbəb olur. O cümlədən dövlətimizin göstərdiyi davamlı diqqət və qayğı bu sahənin daha da inkişaf etməsinə imkan yaradır. Bu məqamda onu da xüsusi olaraq vurğulamaq yerinə düşər ki, ölkəmizdə "Turizm haqqında" qanunun qəbul edilməsi ilə yanaşı, turizm sektorunun inkişafı ilə bağlı bir neçə Dövlət Proqramı da uğurla yerinə yetirilib. Dövlət başçısının imzaladığı müvafiq sənədlərə əsasən respublikamızda elektron viza sisteminin tətbiqi həyata keçirilir. Eləcə də ölkəmizdə turizm sektorunun inkişafı ilə bağlı yaxın, orta və uzunmüddətli dövrü əhatə edən Strateji Yol Xəritəsinin təsdiqlənməsi də bir daha göstərir ki, Azərbaycanda turizmin inkişafı yaxın gələcəkdə daha da sürətləndiriləcək.

Yeri gəlmişkən, Novruz bayramı ilə əlaqədar olaraq bölgələrimizə turistlərin gəlişində artım müşahidə olunub. Məsələn, bayram tətili ilə əlaqədar İsmayıllı rayonuna turist axını xeyli artıb. Xarici turistlər əsasən Rusiya Federasiyasından və Avropa ölkələrindən olublar. Verilən məlumata əsasən bayram günlərində rayondakı istirahət mərkəzləri ilə yanaşı, kənd evlərinə də maraq çoxalıb. Rayon mərkəzində yaxın zamanlarda yeni 3 ulduzlu hotel açılacaq ki, bu da gələn turistlərin artmasına səbəb olacaq. Ümumilikdə bayram günlərini rayonda istirahət mərkəzlərində və kənd evlərində keçirənlər keçən ilə nisbətən 10 faizdən çox artıb.

Bayram günlərində şimal bölgəsinə, o cümlədən Qusar rayonuna gələn turistlərin də sayı xeyli artıb. Belə ki, "Şahdağ" Turizm Mərkəzinin xidmətlərindən gün ərzində orta hesabla iki minə yaxın turist faydalanıb. Novruz bayramı münasibətilə elan olunan qeyri-iş günlərində "Şahdağ" Turizm Mərkəzində dincələn qonaqların əksəriyyətini yerli turistlər təşkil etsə də, ziyarətçilər arasında xeyli sayda əcnəbi də olub. Martın 25-nə olan məlumata görə, son altı gündə turizm mərkəzi 10 mindən çox qonaq qarşılayıb.

Onu da qeyd edək ki, Novruz bayramı ilə əlaqədar turizm mərkəzində tətil günlərinin sonuna qədər davam edən bayram proqramı və şənliklər hazırlanıb. Bayram günləri üçün turizm mərkəzində yerləşən hotellərdəki yerlərin 70-80 faizdən çoxu əvvəlcədən sifariş verilib. Hər il olduğu kimi, bu il də bayram günlərində turizm mərkəzində qonaqların istirahətini təmin etmək məqsədilə müvafiq hazırlıq işləri görülüb.

Buraya ilk dəfə gələn Bəhreyn vətəndaşı Şahraban Husan KİV-ə açıqlamasında kompleksdəki qiymət və xidmətlərdən razı qaldığını söyləyərək bildirib: **"Biz Bəhreyndən qrup halında gəlmişik. Səkkiz gündür ki, Azərbaycandayıq. Bakıdan sonra Qusara gəldik. Buranın təbiətini, qarlı havada kanatla gəzintini, xizəkdə sürüşməyi çox bəyəndim. "Şahdağ" Turizm Mərkəzindən sonra istirahətimizi Qəbələdə davam etdirəcəyik".**

Səudiyyə Ərəbistanından olan Yusif Abdulqani də Azərbaycanın turizm məkanlarında ilk dəfədir ki dincəldiyini deyib. **"Turizm mərkəzinin dağlarla əhatə olunması göz oxşayır. Kompleksdəki xidmətlər yüksək səviyyədədir. Qusarı çox bəyəndim. İnsanları qonaqpərvər, təbiəti gözəldir. Azərbaycana yenə gələcəyəm"**, - deyə əcnəbi qonaq bildirib.

Bayram günlərində bu rayona gələn çoxsaylı yerli turistlərdən biri də Asim Mustafayevdir. Qusarda belə bir müasir istirahət mərkəzinin olmasının onu çox sevindirdiyini vurğulayan A.Mustafayev deyib: **"İndi xarici ölkələrə getməyə ehtiyac yoxdur. Mən dünyanın bir çox ölkələrində olmuşam. Müqayisə edəndə görürsən ki, burada yaradılan şəraitlə yanaşı, xidmətlərin səviyyəsi də yüksəkdir. Gördüklərim müsbət fikir söyləməyə əsas verir".**

Turizm mərkəzi Novruz günlərində də müxtəlif əyləncələrlə qış istirahətini sevənlərin könlünü oxşayıb. Xizək və snoubord sürmə ilə yanaşı, aeroxizək və kvadrosikl turları, ziplayn, peyntbol, at üstündə gəzinti, uşaqlar üçün kirşələr, buz meydançası kimi 13 növ qış əyləncəsi qonaqların ixtiyarına verilib.

"Şahdağ" Turizm Mərkəzində qış mövsümü martın sonunadək davam edəcək. Bayram günlərində Quba rayonuna gələn turistlər isə daha çox Xınalıq və Qəçrəş istirahət zonalarına üz tutublar.

Turist axını Qubada da qeydə alınıb. Belə ki, Quba Turizm İnformasiya Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, bayram günlərində rayona gələn turistlərin sayı adi günlərdəkindən 50-60 faiz çox olub. Gücləndirilmiş iş rejimində çalışan mərkəzdə "qaynar xətt" yaradılıb.

Bayram tətili günlərində Şəki şəhərinə gələn turistlərin də sayında xeyli artım müşahidə olunub. Məlumat üçün bildirək ki, turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biri də rayondakı "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisidir. Bu ərazidə yerləşən muzey və karvansaralar, XVIII əsrə aid dünya əhəmiyyətli nadir tarixi-memarlıq abidəsi - Şəki xanlarının sarayı, həmçinin ötən il istifadəyə verilən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi yerli və xarici turistlərin daha çox marağına səbəb olur. Qeyri-rəsmi məlumata görə, tətil günlərində qoruğun ərazisinə 10 mindən çox turist gəlib.

Qoruğun direktoru Təranə Abdullayeva bildirib ki, bayram günlərində şəhərin qonaqlarının əksəriyyətini yerli turistlər, həmçinin müxtəlif turizm turlarının iştirakçıları təşkil edib. Əcnəbi turistlər arasında isə ruslar və Çindən gələnlər çoxluq təşkil edib.

T.Abdullayevanın dediyinə görə, bayram günlərində şəhərə turist axınını nəzərə alaraq, qoruğun ərazisindəki bütün muzeylərin, o cümlədən Xan sarayının qapıları səhər saatlarından axşamadək qonaqların üzünə açıq olub. Turistlərə xidmət göstərmək üçün Şəki xanları sarayının yaxınlığında, qədim qala divarları ilə əhatələnən geniş yaşıllıq ərazidə asudə vaxt və istirahət guşəsi yaradılıb. Turistlər burada dincəlib, milli geyimdə foto çəkdirib, Şəki şirniyyatları ilə samovar çayına qonaq olublar. Uşaqlar üçün müxtəlif attraksionlar quraşdırılıb. Turistlər Novruz bayramı münasibətilə qoruğun ərazisində, eləcə də şəhərin ayrı-ayrı məhəllələrində təşkil edilən şənliklərdə iştirak edib, xalqımızın qədim adət-ənənələri ilə yaxından tanış olublar.

Qoruğun direktoru bildirib ki, Şəkiyə turist axınının artmasının əsas səbəblərindən biri də turistlərə göstərilən xidmətin keyfiyyəti ilə bağlıdır. Şəki mətbəxinin özünəməxsusluğu, rəngarəngliyi turistləri daim özünə cəlb edir. Onlar milli yeməklərdən olan Şəki pitisinə, paxlavaya, müxtəlif çeşiddə şirniyyat növlərinə böyük maraq göstərirlər. Qoruğun ərazisində olan sənətkarlıq emalatxanaları da daim turistlərin xidmətindədir.

Ağcabədi rayonundan olan Camal Əliyev KİV-ə açıqlamasında bildirib ki, o, Novruz tətili günlərini müəllim həmkarları ilə birlikdə Azərbaycanın qədim diyarlarından olan Şəkidə keçirməyi qərara alıb. Hər dəfə Şəkiyə gələndə bir qayda olaraq, mütləq Xan sarayını ziyarət etdiyini vurğulayan ağcabədili qonaq deyib: **"Şəki ölkəmizin mühüm turizm mərkəzlərindən birinə çevrilib. Azərbaycanın digər bölgələri kimi, bu şəhərdə də tarixi-mədəni irsimizin qorunmasına yüksək diqqət və qayğı göstərilir. Şəki xanlarının sarayı ölkəmizin ən möhtəşəm memarlıq abidələrindəndir. Ona görə də hamıya məsləhət görürəm ki, imkan tapan kimi Şəkiyə gəlsinlər, Azərbaycan memarlığının nadir incilərindən olan bu gözəl sarayı ziyarət etsinlər".**

Azərbaycana Hollandiyadan qonaq gələn Jeron Homan da Şəkinin çox gözəl təbiətə malik olduğunu bildirib: **"Sevinirəm ki, bu gözəl şəhərə bayram günlərində gəlmişəm. Hər yerdə şən əhval-ruhiyyə hiss olunur, insanların üzü gülür. Gözəl adət-ənənələriniz var. Şəhərin sakinləri çox qonaqpərvər və istiqanlıdırlar, turistlərlə çox gözəl ünsiyyət qururlar. Xan sarayının şəbəkə pəncərələri mənim çox xoşuma gəldi. Ölkənizə yenə də gəlməyi düşünürəm".**

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanın turizm potensialı bu gün dünyada olduqca böyük şöhrət tapıb. Bu səbəbdəndir ki, artıq xarici mətbuat səhifələrində də Azərbaycanın turizm mərkəzləri və potensialı ilə bağlı zaman-zaman mühüm məqalələr dərc olunur. Qətərin "Qalf Tayms", "al-Arab", "Lusail", "al-Raya", "Peninsula", "al-Şarq", həmçinin Livanın "əl-Cümhuriyyə", "Cedarnyus", "Menanyus24", "Alarabiyya", "Naharnyus", "Lebanese nyus" və "Alseyasa" qəzetlərində də Azərbaycanın turizm potensialından bəhs edən məqalələr dərc edilib.

Məqalələrdə paytaxt Bakının qədim və müasir tikililərinin, Xəzər dənizinin gözəl sahilyanı ərazilərinin, valehedici qarlı dağların Azərbaycana gələn turistləri məftun etməsindən, ölkəmizin turizm potensialının inkişafından, bu sahədə yaradılan infrastrukturdan danışılır.

Yazılarda ölkəmizin tarixi məkanlarından, turistik yerlərindən söhbət açılır, Bakının, Qusarın, Qəbələnin gəzməli-görməli yerləri barədə məlumat verilir, qeyd edilir ki, Bakı dünyada dəniz səviyyəsindən aşağıda yerləşən yeganə paytaxt, üstəlik ən böyük belə şəhərdir. Xəzər dənizinin sahilində yerləşən Bakı bu dənizin hövzəsindəki ən böyük şəhər statusunu da daşıyır. Buradakı müasir binalar şəhərin qədim arxitekturası ilə vəhdət təşkil edir.

Məqalələrdə bildirilir ki, Azərbaycandakı tikililər müxtəlif üslubların möhtəşəm harmoniyasıdır. Bu binalarda yüz illər ərzində baş vermiş mədəni dəyişikliklər əks olunur. Ölkənin hər yanında minarələrdən tutmuş mozaikalara, orta əsrlərə aid tikililərdən müasir dövrün nümunələrinədək müxtəlif binalara rast gəlinir. Bundan başqa, Azərbaycanın hər bölgəsinin özünəməxsus xüsusiyyəti var.

Həmçinin yazılarda Qusar şəhərindəki Heydər Əliyev Mərkəzi və rəsm qalereyası, eləcə də Şahdağ Qış-Yay Turizm Kompleksi barədə məlumat verilir.

Ölkəmizdə turizmin inkişafından danışarkən onu da bildirmək yerinə düşər ki, Azərbaycan iki yaşa qədər uşaqlarla səyahət etmək üçün ən yaxşı ölkələr siyahısına daxil edilib. Rusiyanın "Tutu.ru" vahid səyahət servisi 2018-2019-cu illərdə alınmış aviabiletləri təhlil edərək belə qənaətə gəlib ki, iki yaşa qədər uşaqları olan valideynlər əsasən ölkə daxilində, xüsusilə də Moskva və Sankt-Peterburqa səyahət edirlər. Belə valideynlərin 12 faizi yaxın xaricə, o cümlədən Azərbaycan, Moldova, Gürcüstan, Tacikistan, Özbəkistan və s. səyahət edirlər. İki yaşınadək uşaqla uzaq xaricə səyahətə çıxanlar isə yalnız 12 faiz təşkil edir.

**Pərviz SADAYOĞLU**

# Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl səkkiz konsert zalı arasında

Dünyada məşhur olan "Vogue" jurnalının Paris nəşrinin portalında dünyanın səkkiz ən gözəl konsert zalı haqqında məlumat dərc olunub.

AZƏRTAC xəbər verir ki, dünyanın memarlıq incilərindən olan Heydər Əliyev Mərkəzi də "Vogue"un siyahısında da yer alıb. Mərkəzin məşhur memar Zaha Hadidin şah əsərlərindən biri olduğu diqqətə çatdırılıb.



Qeyd edilib ki, Heydər Əliyev Mərkəzi ölkəmiz üçün mədəniyyət və memarlığın yeni dövrünün rəmzidir. Memar bu əsəri vasitəsilə mədəniyyətimizin müxtəlif həssaslıqlarını və xalqın optimizmini əks etdirməyə çalışıb.

Dünyada böyük musiqiçilərin konsertləri keçirilmiş və ən gözəl hesab olunan bu konsert zallarının gizli sirlərlə dolu və bəzilərinin isə müasir memarlıq əsərlərinin şedevri olduğu vurğulanıb.

# Amerikalı jurnalistlərə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər çatdırılıb




ABŞ-ın nüfuzlu "The Washington Times" qəzetinin müxbiri Monika Krouli və tanınmış 77WABC radiosunun aparıcısı Con Baçelor Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevdən müsahibə alıb. Con Baçelor tərəfindən aparılan radio proqramı təkcə ABŞ-da deyil, beynəlxalq aləmdə də geniş auditoriyaya malik siyasi şou proqram kimi tanınır.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı erməni separatçılarının hələ sovet hakimiyyəti dövründə Azərbaycana qarşı ərazi iddiaları irəli sürdükləri, Sovet İttifaqı dağıldıqdan sonra Ermənistan qoşunlarının Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal etdikləri, həmin ərazilərdə yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirdikləri diqqətə çatdırılıb. Bildirilib ki, işğal nəticəsində öz torpaqlarından qovulmuş azərbaycanlı əhali ölkəmizin müxtəlif şəhər, rayon və kəndlərində məcburi köçkün vəziyyətində yaşayır.

Müsahibədə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar prosesinin hazırda davam etdirildiyi bildirilib, Azərbaycanın ərazi bütövlüyünün bərpası və məcburi köçkünlərin Dağlıq Qarabağ və ətraf yeddi rayona qayıtmasını özündə ehtiva edən sülh sazişinin yaxın zamanlarda imzalanacağına ümid ifadə edilib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar prosesinin hələ ki, bir nəticə vermədiyi, lakin hazırkı danışıqların davam etdirilməsinin vacib olduğu vurğulanıb, BMT, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyan qətnamələrin qəbul edildiyi bildirilib. Eyni zamanda, Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılması üçün beynəlxalq təşkilatların Ermənistana təzyiq göstərməsinin vacibliyi diqqətə çatdırılıb.

# Bakcell Novruz bayramını Azərbaycan xalqı ilə birgə keçirib

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell Novruz bayramı münasibətilə ümumxalq şənliyinə qatılıb. Şirkət "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil edilmiş "Bahar Qalası" festivalının sponsoru olub.




Mart ayının 20-dən 26-na kimi davam etmiş ənənəvi "Bahar Qalası" festivalında milli-tətbiqi sənət məhsulları, rəsm əsərləri, yerli sənətkarların hazırladıqları əl işləri, suvenirlərin satış-sərgisi nümayiş olunub. Festival çərçivəsində təşkil edilmiş konsert proqramı, tamaşaçılara həm milli, həm də digər xalqların nümayəndələrinin ifasında rəqslər və nəğmələr təqdim edib, Azərbaycan estradasının ulduzlarının ifasında sevilən mahnılar səsləndirilib. Həmçinin, martın 23-də "Bahar Qalası" festivalının xüsusi qonağı olan Türkiyənin gənc estrada ulduzu Aleyna Tilki konsert proqramı ilə çıxış edib.

Beləliklə, Azərbaycan xalqına hər zaman yaxın olan Bakcell şirkəti ölkənin milli dəyərləri və mədəni sərvətlərinə bağlılığını bir daha nümayiş etdirərək "Bahar Qalası" festivalının sponsoru olub. Festival çərçivəsində İçərişəhərdə quraşdırılmış Bakcell stendinə gələn qonaqları və xüsusi olaraq uşaqları müxtəlif sürprizlər, əyləncələr və maraqlı hədiyyələr gözləyirdi. Həmçinin burada, qonaqlar "Bakcell"in məhsul və xidmətləri barədə məlumat əldə etmək və pulsuz mobil nömrə almaq imkanına malik olublar.

Qeyd edək ki, İçərişəhərdə keçirilmiş festival və ümumxalq Novruz şənliyində minlərlə vətəndaş və ölkəmizin qonaqları iştirak edib.

# "Şahdağ" Turizm Mərkəzində turistlərin istirahəti üçün bütün infrastruktur yaradılıb

ABŞ-ın tanınmış 77WABC radiosunun aparıcısı Con Batçelor və nüfuzlu "The Washington Times" qəzetinin müxbiri Monika Krouli "Şahdağ Turizm Mərkəzi" QSC-nin İdarə Heyətinin sədri Rodderix Mark Lefflerdən müsahibə alıblar.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı "Şahdağ" Turizm Mərkəzində turistlərin istirahəti üçün bütün infrastrukturun yaradıldığı, buranın dünyanın nüfuzlu istirahət mərkəzləri ilə rəqabət apara biləcəyi qeyd olunub. Vurğulanıb ki, yerli turistlərlə yanaşı, Qazaxıstan, Rusiya və Avropanın bir sıra ölkələrindən gələn turistlər də "Şahdağ" Turizm Mərkəzində dincəlirlər.

2019-cu ildə mərkəzə rekord sayda xarici turistin gəldiyi diqqətə çatdırılıb. Bildirilib ki, hazırda Çin və Yaponiyadan olan turistlərin mərkəzə gələrək burada dincəlmələri üçün müvafiq işlər görülür.

Qeyd olunub ki, "Şahdağ" Turizm Mərkəzi Bakıdan cəmi 250 kilometr məsafədə yerləşir. Turistlərin istirahəti üçün burada əlverişli hava şəraitinin olduğu, üç SPA mərkəzinin fəaliyyət göstərdiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, turistlərin idmanın 21 müxtəlif növü ilə məşğul olmaları üçün mərkəzdə geniş imkanlar yaradılıb.




## Bayram günlərində dəmir yolu nəqliyyatı ilə 25 minədək sərnişin daşınıb

Novruz bayramı günlərində dəmir yolunda gücləndirilmiş iş rejimi tətbiq olunub.

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, sərnişin sıxlığının artması ilə əlaqədar, ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün tələbata uyğun olaraq əlavə vaqonların qoşulması təmin edilib.

Martın 19-26-da dəmir yolu ilə 24 min 880 sərnişin daşınıb ki, 22 min 423 nəfər ölkə daxilində hərəkət edən, 2457 nəfər isə beynəlxalq istiqamətdə hərəkət edən sərnişin qatarları ilə yola salınıb.

Bayram günlərində hər gün əlavə 800-1000 nəfər sərnişin daşınıb.

## İTMİŞDİR

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 7 saylı ərazi idarəsi tərəfindən Goranboy rayon Muzdurlar kənd sakini Kərimov Rafiq Rəhim oğluna verilmiş 1,94 ha torpaq sahəsinə məxsus 29.12.2014-cü il tarixli 509013001823 nömrəli çıxarış və planölçü itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin III kurs 301-ci qrup tələbəsi Ələsgərova Elnarə Tofiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və Dizayn fakültəsinin I kurs 786-cı qrup tələbəsi Əlizadə Nüşabə Hüseyn qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU